

# İmam Əlinin (ə) ən birinci olduğu iyirmi fəzilət

Doktor Şeyx Abdullah Əhməd əl-Yusifi

اليوسف
موقع سماحة الشيخ عبد الله اليوسف
www.alyousif.org

**Doktor Şeyx Abdullah Əhməd əl-Yusifi**

# İmam Əlinin (ə) ən birinci olduğu iyirmi fəzilət

BAKI – 2017

**Tərtibçisi:**

**Anar Vəlioğlu**

Kitabın nəşrinə
Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi
tərəfindən rəy (16 Avqust 2017-ci il tarixli DK-781/H saylı məktub) verilmişdir.

**Doktor Şeyx Abdullah Əhməd əl-Yusifi.**
**İmam Əlinin (ə) ən birinci olduğu iyirmi fəzilət.**

Bakı, "NURLAR" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2017, 64 səh.

ISBN:978-9952-507-49-2

© Anar Vəlioğlu, 2017

***“Allah mühacirlərin və ənsarın (Peyğəmbərin–səlləllahu əleyhi və alihi və səlləm–Mədinəyə hicrətindən qabaq iman gətirənlərin) ilk qabaqcıllarından və yaxşılıqla onlara tabe olanlardan razıdır və onlar da Allahdan razıdırlar. Və onlar üçün (ev və ağaclarının) altından çaylar axan Cənnətlər hazırlamışdır və onlar orada əbədi qalacaqlar. Budur böyük uğur və qurtuluş!”***

*(Tövbə surəsi, ayə 100).*

# Müqəddimə

İslam tarixi qaynaqlarının və mənbələrinin əksəriyyəti İmam Əlinin (ə) İslamı ilk qəbul edən şəxs olmasına işarə edir. İmam Əlinin (ə) fəzilətlərindən biri də onun İslamı qəbul edən, Rəsulullaha (s) vəhy nazil olduğu ilk günündən ona iman gətirən, onun arxasında namaz qılan, rifah və çətinlikdə daima onunla birlikdə olan ilk şəxs olmasıdır. Qurani-kərimdə İslamda ilk qabaqcıl olanların fəzilətinə işarə edərək belə buyurulur:

**“Allah mühacirlərin və Ənsarın (Peyğəmbərin–səlləllahu əleyhi və alihi və səlləm–Mədinəyə hicrətindən qabaq iman gətirənlərin) ilk qabaqcıllarından və yaxşılıqla onlara tabe olanlardan razıdır və onlar da Allahdan razıdırlar. Və onlar üçün (ev və ağaclarının) altından çaylar axan Cənnətlər hazırlamışdır və onlar orada əbədi qalacaqlar. Budur böyük uğur və qurtuluş!”**[1]

İmam Əli (ə) hər bir xeyir işdə ilk qabaqcıl olduğu kimi Rəsulullaha (s) iman gətirən ilk şəxs olmuşdur. Ümumiyyətlə, İmam Əlinin (ə) həyatını araşdırdıqda onun hər bir şeydə ilk qabaqcıl olduğunu görürük. İmam Əli (ə) ilk İslamı qəbul edən, Peyğəmbərlə (s) ilk namaz qılan, ilk dəfə möminlərin əmiri titulunu daşıyan, ilk dəfə Qurani-kərimi

[1] Tövbə surəsi, ayə 100.

cəm edən və Quran elmlərinin əsasını yaradan, Peyğəmbərin (s) ilk şagirdi, o həzrətə ilk beyət edən və köməyinə yetişən, ilk vəhy katibi, ilk dəfə müsəlmanlar üzərində rəhbər seçilən, Peyğəmbər (s) üçün canını fəda edən ilk şəxs, Allah yolunda ilk mücahid, İslam bayrağını daşıyan və Rəsulullah (s) adından təbliğ edən ilk şəxsdir. O həzrət yeganə müsəlmandır ki, Rəsulullah (s) onun üzərində heç kimi rəhbər təyin etməmişdi. O həzrət ilk qazi, ilk haşimi xəlifə, İslam dövlətinin qanunlarını ilk formalaşdıran, İslamda ilk kitab qələmə alan, ərəb dilinin qrammatikasının əsasını və kəlam elmini yaradan və məsciddə doğulub məsciddə şəhid olan ilk şəxsdir.... Bu siyahı yazmaqla bitməz!

Həzrət Rəsulullah (s) dəfələrlə Əmirəlmöminin (ə) fəzilətləri və üstün cəhətləri barədə xatırlatmışdı. Hədis və ravayət alimləri İmam Əlinin (ə) fəzilətləri barədə nəql olunan hədisləri ehtiva edən çoxlu kitablar yazmışlar. Belə kitablar təkcə müəyyən bir məzhəbə məxsus olmamışdı. Bütün məzhəblərin alimləri bu mövzuya çox əhəmiyyət vermişlər. Həmin kitablardan İmam Nisainin “Xəsaisu əmirəlmuminin”, Xarəzminin “əl-Mənaqib”, İsfəhaninin “Mənaqibu Əli bin Əbi Talib”, İbn Şəhr Aşubun “Mənaqibu Ali Əbi Talib” və İmam Əlinin (ə) fəzilətləri barədə qələmə alınmış digər kitabları qeyd etmək olar.

Allah-təala hər zamanda və hər məkanda Əmirəlmöminin İmam Əlinin (ə) fəzilətləri və üstünlükləri barədə kitab yazacaq və insanlar arasında onu yayacaq alimlər və hadis hafizləri meydana çıxarmışdır. Baxmayaraq ki, həmin müəlliflər belə kitabları yaydıqları üçün təqib və zülmə məruz qalmış, bəziləri isə bunun müqabilində həyatını qurban vermişdir. İmam Əlinin (ə) düşmənləri onun fəzilətlərini və üstünlüklərini gizlətməyi bacarmadılar. Əksinə zaman boyu o həzrətin fəzilətləri o qədər yayıldı ki, hətta İbn Əbulhədid belə demişdir: “Fə-

zilətlərini düşmənlərinin də etiraf etdiyi, gizlədə və inkar edə bilmədiyi bir şəxs barəsində nə deyə bilərəm?! Bütün fəzilətlərə sahib olan şəxs barəsində nə deyə bilərəm?! Bütün firqələr (təriqətlər) onda tamamlayır və bütün tayfalar ona meyl edir. O, fəzilətlərin öndəri və mənbəyidir".[2]

Bütün hədis hafizlərinin və alimlərinin etiraf etdiyi parlaq həqiqət bundan ibarətdir: **"Peyğəmbərin (s) səhabələri içərisində səhih və mötəbər sənədlə İmam Əlinin (ə) fəzilətləri və məqamı barədə nəql olunan qədər heç kəsin barəsində hədis və rəvayət nəql edilməmişdir".**

Bu kitab İmam Əlinin (ə) nə əvvəlkilərin ondan əvvəl sahib olduqları, nə də ki, sonrakıların ondan sonra sahib ola biləcəkləri iyirmi fəzilətindən bəhs edir. Bu fəzilətlər İmam Əlinin (ə) İslamın taleyüklü məsələlərində qabaqcıl olmasını bildirir. Bu kitabın səhifələrində hər iki məzhəbin (şiə və sünni) hədis qaynaqlarından qəbul olunan İmam Əlinin (ə) hamıdan öndə olduğu ən əsas fəzilətlərini qeyd edəcəyik. Bununla da gənc nəsil İmam Əlinin (ə) məqamı və fəzilətlərindən xəbərdar olsun.

Sonda Allah-təaladan diləyim budur ki, bu kitabı axirət günü əməl tərəzimə qoysun! Elə bir gün ki, həmin gün barəsində buyurur: **«O gün ki, malın və oğulların bir faydası olmayacaq».**

**«Yalnız (fəsadlı əqidələrdən və əxlaqdan) salamat (sağlam) bir qəlblə Allahın hüzuruna gələn kimsədən başqa!».**[3] Həqiqətən də Allah-təala ümid yeri, arzuların zirvəsi, rəhmət, feyz və lütf mənbəyidir!

Həqiqi yardım edən məhz Odur!

*Abdullah Əhməd əl-Yusif*
*25 rəbiul-əvvəl 1435 h.*
25 *evral 2014.*

---

[2] İbn Əbuədid, "Şərhu nəhcil-bəlağə", c. 1, səh. 35.
[3] Şüara surəsi, ayə 88-89.

# 1. Ən birinci İslamı qəbul edən

Tarixçi-alimlərin əksəriyyəti İmam Əlinin (ə) İslamı ilk qəbul edən şəxs olması və bu işdə heç bir kişi və qadının ondan önə keçəməməsini demişlər. İmam Əli (ə) özü bu həqiqəti təsdiqləyərək belə buyurmuşdur: "İlahi, mən Sənə dönən, eşidib qəbul edən ilk şəxsəm".[4]

İbn Mərdəveyh İmam Əlinin (ə) belə dediyini nəql edir: "Mən ən birinci İslamı qəbul edən və Rəsulullahla (s) birlikdə ən birinci namaz qılan şəxsəm".[5]

İbn Hişam "əs-Siyrən-nəbəviyyə" kitabında belə deyir: "Allahın Əli bin Əbu Talibə bəxş etdiyi nemətlərdən və onun üçün qərar verdiyi xeyirli məsələlərdən biri də budur; Qureyş qəbiləsində şiddətli qıtlıq baş vermişdi. Əbu Talibin ailəsi böyük idi. Rəsulullah (s) həmin vaxt Bəni Haşimin ən imkanlısı olan əmisi Abbasa dedi: "Ey Abbas! Qardaşın Əbu Talibin ailəsi böyükdür. İnsanların düçar olduqları bu qıtlığı görürsən. Gəl bizimlə gedək onun ailəsini dolandırmağına kömək edək. Onun övladlarından birini mən, birini isə sən himayəyə götür ki, ona yardım edək". Abbas dedi: "Yaxşı". Onlar hər ikisi Əbu Talibin yanına gəlib dedilər: "Biz istəyirik ki, insanların düçar olduqları qıtlıq aradan gedənə kimi sənin ailənin dolanışığına yardım edək". Əbu Talib onlara dedi: "Əqili mənim yanımda qoyun qalsın. Sonra nə istəyirsiniz edin". Rəsulullah (s) Əlini özü ilə götürdü. Abbas isə Cəfəri götürüb evinə apardı. Əli Rəsulullahla (s)

---

[4] Əllamə Məclisi, "Biharul-ənvar", c. 34, səh. 111.
[5] İbn Mərdəveyh İsfəhani, "Mənaqibu Əli bin Əbi Talib", səh. 47.

birgə qaldı. Allah-təala Rəsulullahı peyğəmbər seçəndə Əli ona tabe oldu, iman gətirdi və onu təsdiqlədi”.[6]

İmam Nisai Zeyd bin Ərqəmdən belə nəql edir: “Peyğəmbərlə (s) ilk İslamı qəbul edən şəxs Əli bin Əbu Talibdir”. [7]

Hədis alimlərinin əksəriyyəti İmam Əlinin (ə) Rəsulullaha (s) ilk iman gətirməsi və ona tabe olması məsələsində müttəfiqdirlər. Bu məsələdə yalız az bir qisim müxalifdir. İmam Əli (ə) özü belə buyurmuşdur: “Ən böyük siddiq (doğru danışan) və ilk faruq (haqqı batildən ayıran) mənəm. İnsanlar İslamı qəbul etmədən öncə müsəlman olmuşam və onlardan əvvəl namaz qılmışam”. Hədis kitablarına müraciət edən hər kəs bu məsələnin aşkar həqiqət olduğunu bilir. Vaqidi və İbn Cərir Təbəri bu rəydədirlər. “əl-İstiyab” kitabının müəllifi bu rəyi dəstəkləmiş və ən üstün rəy hesab etmişdir.

Usudul-ğabə kitabına əsasən alimlərin əksəriyyətinin rəyinə görə İslamı ilk qəbul edən şəxs odur. İbn Əbdulbirr “əl-İstiyab” kitabında belə deyir: “Süleyman, Əbuzər, Miqdad, Xubab, Cabir, Əbu Səid Xidri və Zeyd bin Ərqəmdən nəql olunur ki, Əli bin Əbu Talib İslamı qəbul edən ilk şəxsdir. Onlar Əlini başqasından üstün tuturdular”.

İbn İshaq belə nəql edir: “Allah və Onun peyğəmbəri Muhəmmədə iman gətirən kişilərdən birincisi Əli bin Əbu Talibdir”. İbn Şihabın rəyi də belədir. Lakin o, Xədicədən sonra ən birinci kişidir demişdir. Xədicənin barəsində hamının rəyi budur. Sonra İbn Abbasdan belə nəql edir: “Əlinin elə dörd məziyyəti vardır ki, heç kimdə yoxdu: “O, ərəb və əcəm içərisində Peyğəmbərlə (s) birlikdə namaz qılan

[6] İbn Hişam, “əs-Siyrətun-nəbəviyyə”, c. 1, səh. 184-185.
[7] İmam Nisai, “Xəsaisu Əmirilmuminiə Əli bin Əbu Talib”, səh. 20, hədis 3 və 4.

ən birinci şəxsdir. O, hər bir döyüşdə (Peyğəmbərin) bayraqdarı olmuşdur. O, hamının ondan üz döndərdiyi vaxtda onunla birgə olmuşdu. O, (Peyğəmbərin nəşini) yuyub dəfn etmişdi". Sonra belə deyir: "Süleymandan Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "Bu ümmətdən (Cənnətdə) hovuz başında mənim yanıma gələcək şəxs içərinizdə İslamı ən birinci qəbul edən Əli bin Əbu Talib olacaq".

Salman Farisidən Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: "İçərinizdən hovuz başında ən birinci mənim yanıma gələn aranızda İslamı ən birinci qəbul edən Əli bin Əbu Talib olacaq". Hakim də Müstədrək kitabında bu hədisə bənzər Salmandan nəql edib. İbn Abbasdan belə nəql olunur: "Əli bin Əbu Talib Xədicədən sonra insanlar içərisində ən birinci iman gətirən şəxsdir".

Əmr bin Əbdulbirr belə deyir: "Səhihliyinə və ravilərinin etibarlı olmasına görə bu hədisin sənədində heç bir xələl yoxdur". İbn Şihab, Abdullah bin Muhəmməd bin Əqil, Qətadə və İbn İshaq belə deyiblər: "Kişilər arasında İslamı qəbul edən ən birinci şəxs Əlidir". Hamısı müttəfiqdirlər ki, ən birinci Xədicə sonra isə Əli Allaha və Onun Peyğəmbərinə iman gətirmiş, Peyğəmbərin dediklərini təsdiqləmişlər". Sonra belə deyir: "Əbu Rafedən də bu cür nəql edilmişdir. Muhəmməd bin Kəb Qərzidən "Ən birinci Əli İslamı qəbul edib yoxsa Əbu Bəkr? -deyə soruşmuşlar və o, belə demişdir: " Sübhanəllah! Əli İslamı ən birinci qəbul edən şəxsdir. Lakin Əli İslamı qəbul etməsini gizli saxladığı üçün insanlar qarışıq salmışlar. Şübhəsiz ki, bizim nəzərimizdə Əli İslamı ondan əvvəl qəbul etmişdir".

Qətadə Həsəndən belə nəql edir: "Əli İslamı qəbul edən ən birinci şəxsdir". İbn İshaq belə deyir: "Allaha və Rəsulullaha iman gətirən ilk kişi Əli bin Əbu Talibdir". Həmçi-

nin Qətaədən, o da Həsəndən və qeyrilərindən belə dediklərini nəql edirlər: “Xədicədən sonra Əli bin Əbu Talib İslamı qəbul etmişdir”. İbn Abbas belə nəql edir: “İslamı ilk qəbul edən şəxs Əlidir”.

İbn Əbdulbirr belə deyir: “Müslim Məllai Ənəs bin Malikin belə dediyini nəql edir: “Bazar ertəsi günü Rəsulullaha (s) peyğəmbərlik verildi və çərşənbə axşamı Əli onunla namaz qıldı”. Hakim “əl-Mustədrək” kitabında Abdullah bin Bureydədən, o da atasından belə nəql edir: “Bazar ertəsi günü Peyğəmbərə (s) vəhy gəldi və çərşənbə axşamı Əli onunla namaz qıldı”. Həmçinin Ənəsin belə dediyini nəql edir: “Bazar ertəsi günü Rəsulullaha (s) peyğəmbərlik verildi və çərşənbə axşamı Əli onunla namaz qıldı”.

Nisai “Xəsais” kitabında bir neçə sənədlə Zeyd bin Ərqəmdən belə nəql edir: “Rəsulullahla (s) birlikdə namaz qılan ilk şəxs Əli bin Əbu Talibdir”. Həmçinin ondan belə nəql edir: “Rəsulullahla (s) birlikdə müsəlman olan ilk şəxs Əli bin Əbu Talibdir”. Hakim “əl-Mustədrək” kitabında Zeyd bin Ərqəmdən səhih sənədlə belə nəql edir: “Rəsulullahla (s) birlikdə müsəlman olan ilk şəxs Əli bin Əbu Talibdir”. Zəhəbi “Təlxisil-mustədrək” və “əl-İstiyab” kitablarında bu hədisi səhih hesab etmişdir.[8]

Muhəmməd bin İshaqın belə dediyini nəql edir: “Kişilər arasında Rəsulullaha (s) iman gətirən, onunla namaz qılan, Allah tərəfindən gələnləri təsdiq edən ilk şəxs Əli bin Əbu Talib olmuşdu. Həmin günü onun on yaşı vardı. Allahın Əli bin Əbu Talibə bəxş etdiyi nemətlərdən biri də onun İslamdan əvvəl Rəsulullahın (s) ağuşunda olması idi”.[9]

---

[8] Seyid Musin Əmin, “Əyanuş-şiə”, c. 2, səh. 25-26.
[9] Xarəzmi, “əl-Mənaqib”, səh. 51.

İbn İshaq belə deyir: “Əli on yaşı olanda İslamı qəbul etmişdir”.[10]

İbn Kəsir belə nəql edir: “Əli İslamı qəbul edən ilk şəxsdir. İslamı qəbul edəndə onun doqquz yaşı vardı”.[11]

İbn Abbas belə deyib: “Rəsulullahla (s) birlikdə müsəlman olan ilk şəxs Əlidir”.[12]

Usudul-ğabə kitabında bir neçə sənədlə İbn Abbasdan və Zeyd bin Ərqəmdən belə nəql olunur: “İslamı qəbul edən ən birinci şəxs Əlidir”.[13]

Zeyd bin Ərqəm belə nəql edir: “Rəsulullahla (s) birlikdə müsəlman olan ilk şəxs Əli bin Əbu Talibdir”.[14]

Qazi Məğribi belə deyir: “İnsanlar müşrik olanda o, (Əli) Allaha və Onun Peyğəmbərinə iman gətirdi. İnsanlar Allahın peyğəmbərini təkzib etdiyi halda o, təsdiqlədi. O, imanda möminlərin ən birinci, ilk qabaqcılların ən qabaqcılı idi. Buna görə də müqərrəblərdən (Allaha yaxın olanlar) və siddiqlərdən idi. Bu iki adla xatırlanmağa daha layiq idi. Deyilənə görə Quranda “Ey iman gətirənlər...” xitabı ilə başlanan hər ayədə Əli iman gətirənlərin ən birincisidir”.[15]

Tarix, siyrə (tərcümeyi-hal) və hədis kitablarının əksəriyyəti İmam Əlinin (ə) İslamı qəbul edən ən birinci şəxs olmasını bəyan edir. Bu məsələdə heç kim ondan önə keçməmişdir. Yalnız az saylı tarixçilər buna müxalif çıxmışlar.

---

[10] Əhməd bin Səhl Bəlxi, “əl-Bidu vət-tarix”, səh. 372.
[11] İbn Kəsir, “əl-Bidayə vən-nihayə”, c. 3, səh. 285.
[12] İbn Əsir, “əl-Kamil fit-tarix”, c. 1, səh. 582.
[13] İbn Əsir, “Usudul-ğabə”, c. 4, səh. 17.
[14] İbn Cərir Təbəri, “Tarixu Təbəri’, c. 1, səh. 537.
[15] Qazi Məğribi, “əl-Mənaqib vəl-məsalib”, səh. 206.

## 2. Peyğəmbərlə birlikdə namaz qılan ilk şəxs

İmam Əlinin (ə) fəzilətlərindən və ilk qabaqcıl olduğu əməllərdən biri də onun Rəsulullahla (s) birlikdə namaz qılan ilk şəxs olmasıdır. Bu barədə nəql olunan hədislər mütəvatirdir. Həmin hədislərdən bəzilərini qeyd edirik:

Nisai Həbbətil-Ərəninin belə dediyini nəql edir: "Əlinin belə dediyini eşitdim: "Mən Rəsulullahla (s) birlikdə namaz qılan ilk şəxsəm".[16]

Zeyd bin Ərqəmin belə dediyi nəql olunur: "Rəsulullahla (s) birlikdə ilk namaz qılan kişi Əlidir".[17]

Əmr bin Mərrənin belə dediyi nəql olunur: "Əbu Həmzənin belə dediyini eşitdim: "Zeyd bin Ərqəmin "Rəsulullahla (s) birlikdə ilk namaz qılan kişi Əlidir" dediyini eşitmişəm".[18]

Əbbad bin Abdullah belə nəql edir: "Əlinin belə dediyini eşitdim: "Mən Allahın qulu, Rəsulullahın qardaşıyam. Mən ən böyük siddiqəm. Məndən sonra bunu yalnız iftiraçı yalançı iddia edər! İnsanlardan yeddi il əvvəl Rəsulullahla birlikdə namaz qılmışam".[19]

İbn Mərdəveyh Həbbə bin Cuveyndən Əlinin ona belə dediyini nəql edir: "Bu ümmətdən kimsə Allaha ibadət etmədən əvvəl mən Rəsulullahla birlikdə Allaha yeddi il ibadət etmişəm".[20]

---

[16] Nisai, "Xəsaisu Əmirilmuminin Əli bin Əbi Talib", səh. 20.
[17] Nnisai, "Xəsaisu Əmirilmumininə Əli bin Əbu Talib", səh. 20.
[18] İbn Cərir Təbəri, "Tarixu Təbəri", c. 1, səh. 537.
[19] İbn Cərir Təbəri, "Tarixu Təbəri", c. 2, səh. 537. İbn Əsir, "əl-Kamil fit-tarix", c. 1, səh. 582.
[20] İsfəhani, "Mənaqibu Əli bin Əbu Talib", səh. 48.

İbn Abbas belə deyir: “Namazı ən birinci Əli qılmışdır”. Cabir bin Abdullah belə deyir: “Bazar ertəsi günü Rəsulullaha (s) peyğəmbərlik verildi və çərşənbə axşamı Əli onunla namaz qıldı”.[21]

İstiyab kitabında belə yazılıb: “Əli dedi: “Rəsulullahla birlikdə filan il qədər namaz qıldım. Məndən başqa yalnız Xədicə onunla namaz qılırdı”.

Həmin kitabda Həbbə bin Cuveynə istinadən Əlinin belə dediyi nəql olunur: “Bu ümmətdə məndən əvvəl Allaha ibadət edən birini tanımıram. İnsanlardan kimsə Allaha ibadət etmədən beş və ya altı il əvvəl mən Allaha ibadət etmişəm”. Yenə orada Əbu Əyyub Ənsaridən Peyğəmbərin (s) belə buyurduğu nəql olunur: “Mələklər mənə və Əliyə yeddi il mərhəmət diləmişlər. Çünki mənimlə ondan başqa heç kim namaz qılmırdı”.

Nisai “Xəsais” kitabında Əlinin belə dediyini nəql edir: “İnsanlardan yeddi il əvvəl namaz qılmışam”. Həmçinin Əlinin (ə) belə dediyi nəql olunur: “Peyğəmbərimizdən sonra bu ümmət içərisində məndən başqa kimsə Allaha ibadət etməmişdir. Bu ümmətdən kimsə ibadət etmədiyi vaxt mən Allaha doqquz il ibadət etmişəm”. Bir nüsxədə belə yazılıb. Bəlkə də yeddi il yazılmalı idi.[22]

Hakim Mustədrək kitabında Əbbad bin Abdullah Əsədidən Əlinin belə dediyini nəql edir: “Mən Allahın qulu, Rəsulullahın qardaşıyam. Mən ən böyük siddiqəm. Məndən sonra bunu yalnız iftiraçı yalançı iddia edər! İnsanlardan yeddi il əvvəl Rəsulullahla birlikdə namaz qılmışam”.[23]

---

[21] İbn Əsir, “əl-Kamil fit-tarix”, c. 1, səh. 582.
[22] Seyid Muhsin Əmin, “Əyanş-şiə”, c. 2, səh. 26.
[23] Seyid Musin Əmin, “Əyanuş-şiə”, c. 2, səh. 26.

Həmçinin Həbbə Ərəniyə istinadən onun belə söylədiyini nəql edir: “Əlinin “Bu ümmətdən hər hansı bir kəs Allaha ibadət etmədən beş il əvvəl mən Allaha ibadət etmişəm” dediyini eşitdim”. Yenə Həbbə Ərənidən belə nəql edir: “Əlinin “Mən Rəsulullahla birlikdə namaz qılan ilk şəxsəm” dediyini eşitdim”. Nisai də “Xəsais” kitabında Həbbə Ərənidən bu cür nəql etmişdir.[24]

İbn Abbasdan belə dediyi nəql olunur: “Rəsulullah (s) belə buyurub: “Mələklər mənə və Əliyə yeddi il mərhəmət diləmişdir”. “Nə üçün, ya Rəsulullah?” -deyə soruşdular. (Peyğəmbər) buyurdu: “Ondan başqa heç kim mənim yanımda deyildi”.

Xarəzminin “Mənaqib” kitabında (Peyğəmbərin) belə buyurduğu nəql olunur: “Mələklər yeddi il mənə və Əliyə mərhəmət diləmişdir. Çünki həmin vaxt mən və Əlidən başqa heç kimin tərəfindən la ilahə illəllah kəlməsi səmaya ucalmırdı”. “Xəsais” kitabının müəllifi bu hədisi qeyd etmişdir.[25]

Qeyd etdiyimiz hədis və rəvayətlərdən aydın olur ki, İmam Əli (ə) Peyğəmbərlə (s) birlikdə namaz qılan ilk şəxs olmuşdur. O, bütün müsəlmanlardan yeddi il öndə olmuşdur. Çünki namaz Merac gecəsi vacib olmuşdur. Merac hicrətdən üç il öncə baş vermişdi. Peyğəmbər (s) besətdən (peyğəmbərlik verildikdən) sonra Məkkə şəhərində on il yaşamışdı. İmam Əli (ə) Rəsulullahla (s) birlikdə Hira mağarasına və vadilərə gedərdi və hər ikisi birlikdə gündəlik namazlar vacib olanadək bu yeddi ili Allah-təalaya ibadət etmişlər.

---

[24] Seyid Muhsin Əmin, “Əyanuş-şiə”, c. 2, səh. 25.
[25] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 38, səh. 239.

## 3. Peyğəmbərin ilk şagirdi

İmam Əli (ə) Rəsulullahın (s) evində böyüyüb ərsəyə çatmışdır. Peyğəmbər ona çox vaxt ayırmış, əxlaq, davranış, tərbiyə və elm baxımından onu özünə yaxınlaşdırmışdı. Buna əsasən də İmam Əlinin (ə) Peyğəmbərin (s) ilk şagirdi olmasını demək tamamilə doğrudur.

Qazi Məğribi deyir: "Rəsulullah (s) kişilərin püxtələşdiyi yaş həddinə çatdıqda Əlini atası Əbu Talibdən alıb saxladı. Bununla kiçik ikən (Əbu Talibin) onun üçün etdiyi yaxşılıqların əvəzini çıxmaq istəyirdi. (Peyğəmbər) Əlini himayəyə və qəyyumluğa götürdü. O, Əli üçün bir övlada ata və ya qardaşa mehriban bir qardaş kimi oldu. Əli (ə) Rəsulullahın (s) ağuşunda böyüdü, ondan tərbiyə aldı və ondan öyrəndi. Allahın ona olan hörmətindən və onu pak tutmasından dolayı heç vaxt bütə ibadət etməmiş və bir an olsun belə, Allaha şərik qoşmamışdır.[26]

Əmirəlmöminin "Qasiə" adlanan xütbəndə bu həqiqətə işarə edərək belə demişdi:

"Mən təzə doğulmuş, həmişə anasının dalınca düşən dəvə balası kimi onun ardınca gəzirdim. Həzrət hər gün əxlaqdan mənə yeni-yeni hikmətlər aşkar edərək onun xəttində irəliləməyimi tövsiyə edirdi. Həzrət Peyğəmbər ilin bir müddətini Həra dağında keçirirdi. Məndən başqa heç kəs onu görmürdü. O günlər İslam dinində Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) Xədicədən başqa heç kim yox idi. Onların üçüncüsü mən idim. Mən vəhy

---

[26] Qazi Məğribi, "əl-Mənaqib vəl-məsalib", səh. 206.

və risalət nurunu görürdüm. Peyğəmbərliyin iyini hiss edirdim. Peyğəmbərə vəhy nazil olan zaman şeytanın naləsini eşitdikdə soruşdum: "Bu kimin naləsidir?!" (Peyğəmbər) buyurdu: Bu Şeytandır. Ona ibadət olunacağından ümidsiz olub və elə ona görə də nalə edir. Ya Əli! Mən eşitdiyimi duyur mən gördüyümü isə görürsən. Fəqət sən Peyğəmbər deyilsən, lakin mənim vəzirimsən. Sən səadət və xeyir yolundasan."

İmam Əli (ə) hər yerdə, evdə, məsciddə, vadilərdə, dağlarda, savaş və fəthlərdə öz ustadının, yəni Peyğəmbərin (s) yanından ayrılmadı.

İmam Əli (ə) elm və mərifət əldə etmək üçün hər sabah və hər axşam Rəsulullahın (s) yanına gələrdi. O həzrət bu barədə belə deyir: "Rəsulullah (s) elmdən mənə min qapı öyrətdi.[27] Həmçinin demişdir: "Elmdən mənə min qapı öyrətdi. Hər qapıdan min qapı açılır".[28]

Çünki İmam Əli (ə) Rəsulullahın (s) şagirdi, elminin, sirrinin və mərifətinin (ilahi bilgilərinin) xəzinədarı olmuşdu. Rəsulullah (s) buyurub: "Mən elmin şəhəri, Əli isə onun qapısıdır. Elmin şəhərinə daxil olmaq istəyən içəri qapıdan daxil olsun".[29]

Başqa bir rəvayətdə isə belə buyurulur: "Mən elmin şəhəriyəm Əli onun qapısıdır. Şəhərə qapıdan başqa bir yolla daxil olarlar?!"[30]

---

[27] Qazi Noman Mğribi, "Şərhul-əxbar", c. 2, səh. 308.
[28] Əllamə Məclisi, "Biharul-ənvar", c. 69, səh. 183.
[29] İbn Şöbə Hərrani, "Tuhəful-uqul", səh. 317.
[30] Şeyx Səduq, "Tohid", səh. 307.

# 4. Ən birinci vəhy katibi

Tarixçilər vəhy katiblərinin sayı barədə müxtəlif rəylər demişlər. Həmçinin bəziləri vəhy katibləri ilə ümumi işlər üçün olan katibləri qarışdırmışlar. Lakin bu dəqiqdir ki, İmam Əli (ə) ilk vəhy katibidir. Əgər Peyğəmbərə (s) gecə ikən vəhy nazil olardısa, sabah olmamış onu Əliyə deyərdi. Əgər gündüz ona vəhy nazil olardısa, axşam olmamış Əli bunu bilərdi. İmam Əli (ə) buna işarə edərək belə buyurmuşdu: "Mən (Quranın) nasixini, mənsuxunu, möhkəm və mütəşabihini, (ayələrin) ayrı və birləşik olmasını, hərflərin mənalarını daha doğru bilirəm. Allaha and olsun ki, Muhəmmədə (s) nazil olan elə bir ayə yoxdur ki, mən onun kimin barəsində, hansı günü və harada nazil olduğunu bilməyim. Vay olsun onlara məgər (Quranda) oxumurlar: **"Həqiqətən, bu (deyilənlər: mənəvi paklıq və nicat, öyüd – nəsihət və namaz, dünyanı axirətdən üstün tutma) bütün keçmiş səmavi kitablarda yazılmışdır".**[31] İbrahimin və Musanın kitablarında Allaha and olsun ki, (həmin səhifələr)məndədir. Rəsulullahdan (s) mənə miras qalıb. Rəsulullaha (s) isə İbrahim və Musadan miras qalıb. Vay olsun onlara! Mən o şəxsəm ki, Allah mənim barəmdə belə nazil edib: **"Ona görə ki, bunu (bu hadisəni) sizin üçün bir ibrət edək və eşidən, yadda saxlayan qulaq bunu eşidib yadda saxlasın".**[32] Biz Rəsulullahın (s) yanında olardıq. Mən anla-

[31] Əla surəsi, ayə 18-19.

[32] Haqqə surəsi, ayə 12.

yardım, digərləri isə anlamazdılar. Elə ki, (Peyğəmbərin) yanından çıxardıq deyərdilər: “Bayaq nə deyirdi?”[33]

İmam Əli (ə) Rəsulullaha çox yaxın idi. Peyğəmbər evində baş verənlərdən agah idi. Rəsulullah (s) nazil olan bütün vəhyləri ona bildirər, o da yazardı.

[33] Əllamə Məclisi, “Biharul-ənvar”, c. 40, səh. 138.

## 5. Qurani-kərimi ilk cəm edən

Peyğəmbərin (s) vəfatından sonra Qurani-kərimi nazil olduğu tərtiblə toplayan ilk şəxs İmam Əli (ə) olmuşdur. Əhli-beytdən bu barədə nəql olunan rəvayətlər mütəvatir həddindədir. Əhli-sünnə tərəfindən nəql olunanlar isə olduqca çoxdur. İtqan kitabında Peyğəmbərin (s) vəfatından sonra Quranı toplayan şəxsin Əli bin Əbu Talibin olduğu qeyd olunmuşdur. İbn Əbu Mərdəveyh İbn Sirin vasitəsilə "əl-Məsahif" kitabında belə nəql edir: "Əli belə dedi: "Rəsulullah vəfat etdikdə özümə söz verdim ki, Quranı toplayana qədər cümə namazından başqa heç vaxt əbamı geyinməyəcəm. Sonda Quranı topladım". İbn Həcər belə deyir: "Bu rəvayət sənədinin kəsilməsinə görə zəifdir". Siyuti "əl-İtqan" kitabında ona cavab verərək belə demişdir: "Bu rəvayət başqa sənədlə də nəql edilmişdi. İbn Zəris onun (Əlinin) fəzilətləri barədə bu rəvayəti qeyd etmişdir; Bişr bin Musa Həudə bin Xəlifədən, o da Ovn bin Muhəmməddən, o da İkrimənin belə dediyini nəql edir: "Əbu Bəkrə beyət olunduqdan sonra Əli bin Əbu Talib evinə çəkildi. Əbu Bəkrə dedilər ki, o sənə beyət etmək istəmir. Onu bura çağırtdır. (Əbu Bəkr Əliyə) dedi: "Nə səbəbə görə məndən uzaqlaşmısan?" (Əli) dedi: "Düşündüm ki, Allahın kitabına nəsə artırılacaq. Öz-özümə dedim ki, Quranı toplamamış namazdan başqa heç vaxt əbamı geyinməyəcəm". (Siyuti) deyir: "İbn Əştutə də başqa yolla İbn Sirindən bu rəvayəti nəql etmişdir. Həmin rəvayətdə Əlinin (ə) topladığı Quranda nasix və mənsux ayələri də yazdığı qeyd edilmişdir. İbn

Sirin belə deyir: “Həmin kitabı axtardım. Mədinəyə də xəbər göndərdim. Amma onu tapa bilmədim”.

İbn Səd və İbn Əbdulbirr İbn Sirininin belə dediyini nəql edirlər: “Xəbər tutdum ki, Əli Əbu Bəkrə beyət etməkdən yayınmışdır. (Əbu Bəkr ona belə) demişdir: “Mənim rəhbərliyimi istəmirsən?” (Əli) belə cavab vermişdir: “And içdim ki, Quranı toplayana qədər namazdan başqa heç vaxt əbamı geyinməyəcəm”. (İbn Səd və ya İbn Əbdulbirr) deyir: “Belə iddia edirlər ki, o Quranı nazil olduğu kimi toplayıb”.

Muhəmməd bin Sirin deyir: “O kitabı tapa bilsəydim! Elm məhz ordadır”.

İbn Əuf belə deyir: “İkrimədən həmin kitab barəsində soruşdum, lakin bilmədi”.

Həmçinin “əl-İtqan” kitabında İbn Həcərin belə dediyi qeyd olunur: “Əlinin Peyğəmbərin (s) vəfatından sonra Quranı nazil olduğu tərtibə əsasən topladığı nəql olunmuşdur. İbn Əbu Davud bunu qeyd etmişdir. Əbu Nəim “əl-Hilyə” kitabında, Xətib isə “Ərbəin” kitabında Səddidən, o da Əbdu Xeyirdən o da Əlinin belə dediyini nəql etmişlər: “Rəsulullah (s) vəfat etdikdə and içdim ki, lövhələrdə olanı toplamayana qədər əbamı çiynimə salmayacam. Quranı toplayana qədər əbamı geyinmədim”.

İbn Nədim “əl-Fihrist” kitabında Əbdu Xeyirdən belə nəql edir: “Əli Peyğəmbərin (s) vəfatında insanların çaşqınlıq içərisində olduqlarını gördü. Quranı toplamamış əbasını geyinməyəcəyinə and içdi. Üç gün evində oturub Quranı cəm etdi. Bu, onun qəlbinə (əzbərlədiyinə) əsasən Quranın toplandığı ilk səhifələr idi. Həmin səhifələr Cəfərin ailəsində idi”.

İbn Şəhr Aşub “əl-Mənaqib” kitabında belə nəql edir: “Əhli-sünnənin hədis və təfsir imamı Quranın nazil olması

barədə, həmçinin Əbu Yusif Yəqub təfsirində İbn Abbasdan "Şübhəsiz, onu (sənin qəlbində) cəm etmək, onu (sənə) oxumaq (və sənin camaata oxumağın) Bizim öhdəmizdədir" ayəsi barədə belə dediyini nəql edir: "Allah Muhəmmədə (s) bildirmişdir ki, Rəsulullahdan (s) sonra Əli bin Əbu Talibin Quranı toplanmasına zəmanət vermişdir". İbn Abbas deyir: "Allah Quranı Əlinin qəlbində cəm etmişdir. Əli Rəsulullahın (s) vəfatından sonra altı ay müddətində Quranı topladı".

Əbu Rafenin nəql etdiyi rəvayətlərdə belə qeyd edilir: "Peyğəmbər (s) vəfat etdiyi xəstəlik dövründə Əliyə belə dedi: "Ey Əli! Bu Allahın kitabıdır. Götür onu!" Əli Quranı (yazılmış səhifələri) paltarının ətəyində toplayıb evinə getdi. Peyğəmbər (s) vəfat etdikdə Əli evində oturub Allah nazil etdiyi kimi Quranı topladı. O, bunu bilirdi".

Həmçinin deyir: "Əbuləla Əttar və Muvəffəq Xətib Xarəzm yazdıqları kitabda Əli bin Rəbahdan belə nəql edirlər: "Peyğəmbər Əliyə əmr etdi ki, Quranı toplasın. O da Quranı toplayıb yazdı".

İbn Şəhr Aşub "əl-Məalim" kitabında belə nəql edir: "Doğru olan budur ki, İslamda kitab yazan ilk şəxs Əlidir. O, Allah-təalanın kitabını toplamışdır".

İbn Munadi nəql edir ki, Əli (ə) üç gün evində oturub Quranı topladı. Onun topladığı Quran qəlbindən (əzbərindən) yazılmış ilk səhifələr idi.[34]

İmam Baqir (ə) buyurub: "İnsanlardan Quranı nazil olduğu kimi topladığını yalnız yalançı iddia edər. Quranı Allahın nazil etdiyi kimi qoruyub toplayan yalnız Əli və ondan sonra gələn imamlar olmuşdur".[35]

---

[34] Seyid Muhsin Əmin, "Əyanuş-şiə" , c. 7, səh. 345-346.

[35] Şeyx Kuleyni, "Usulul-kafi", c. 1, səh. 284.

Bəzi rəvayətlərdə qeyd olunur ki, İmam Əli (ə) Qurani-kərimi Rəsulullahın (s) dövründə toplamışdır. Lakin (Peyğəmbər) vəfat etdikdən sonra nazil olduğu tərtibə əsasən toplamışdır.

İbn Əbulhədidin dediyi kimi hamı eyni rəydədir ki, o, Rəsulullahın (s) dövründə Quranı əzbər bilirdi. Ondan qeyrisi əzbər bilmirdi. Sonra o, Quranı toplayıb yazan ilk şəxsdir. Hamı qeyd edir ki, o, Əbu Bəkrə beyət etməkdən yayınmışdır. Əhli-sünnə şiələrin dediyi kimi Əlinin Əbu Bəkrə müxalif olduğu üçün beyətdən yayındığını demirlər. Əksinə belə deyirlər: "O, Quranı toplamaqla məşğul idi". Bu, dəlalət edir ki, o həzrət Quranı cəm edən ilk şəxsdir. Çünki əgər Quran Peyğəmbərin (s) dövründə toplansaydı onun vəfatından sonra Quranı toplamaqla məşğul olmazdı. Əgər Quran qarilərinin kitablarına nəzər salsan, Əbuəla, Asim bin Əbunnucud və başqaları kimi onların hamısının ona (İmam Əliyə) qayıtdıqlarına şahid olarsan. Çünki onlar hamısı Əbu Əbdürrəhman Səlmiyə qayıdırlar. O isə, Əlinin şagirdi idi və Quranı ondan öyrənmişdir. Bu fənn ona aid olan fənlərdən idi.[36]

İbn Şəhr Aşub Mənaqib kitabında belə deyir:

"Yeddi qarilər hamısı qiraətdə ona qayıdırlar. Həmzə və Kisai Əlinin və İbn Məsudun qiraətinə qayıdırlar. Lakin onların Mushəfi İbn Məsudun Mushəfi deyil. Onlar hər ikisi yalnız Əliyə qayıdır və irab məsələsində İbn Məsudla müvafiqdirlər. İbn Məsud deyir: "Əli bin Əbu Talib kimi Quranı qiraət edən bir kəsi görməmişəm".

Nafiə, İbn Kəsir və Əbu Əmrə gəlincə, onların qiraət tərzi İbn Abbasa qayıdır. İbn Abbas qiraətini Ubəy bin Kəb

[36] İbn Əbulhədid, "Şərhu Nəhcil-bəlağə", c. 1, səh. 43-44.

və Əlidən götürmüşdür. Bütün bu qarilərin qiraəti Ubəyin qiraətinə müxalifdir. Deməli, İbn Abbas qiraətini Əlidən (ə) götürmüşdür.

Asimə gəlincə, o, Əbu Əbdürrəhman Səlminin yanında (Qurani-kərimi) oxumuşdur. Əbu Əbdürrəhman belə deyib: "Quranı başdan-ayağa Əli bin Əbu Talibin yanında oxudum". Belə deyiblər: "Ən fəsahətli oxunuş Asimin oxunuşudur. Çünki o, əsl oxunuşu təqdim etmişdir. Başqasının idğam etdiyini o, izhar etmişdir. Başqasının yumuşaq oxuduğu həmzəni tam qeyd edir. Başqasının imalə etdiyi əlifləri o, aşkar demişdir. Qurani-kərimdəki kufi ədəd Əliyə (ə) nisbət verilir. Səhabə içərisində ondan başqa heç kimə nisbət verilməmişdir".[37]

Bununla da aydın olur ki, Qurani-kərimi toplayan və əzbər bilən ilk şəxs İmam Əli (ə) olmuşdur. Yeddi qarinin hər biri İmam Əlinin (ə) qiraətinə qayıdır.

---

[37] İbn Şəhr Aşub, "əl-Mənaqib", c. 2, səh. 52.

## 6. Peyğəmbərə ilk beyət edən şəxs

Tarixçilər qeyd edirlər ki, Peyğəmbərə (s) ilk beyət edən və ona kömək edəcəyini elan edən şəxs Əli (ə) olmuşdur. Əbu Bəkr Şirazi öz kitabında Cabir bin Abdullah Ənsaridən belə nəql edir: "Peyğəmbərə (s) ilk beyət edən əmirəlmöminin, sonra Əbu Sinan Abdullah bin Vəhəb, daha sonra isə Salman oldu". Leysin rəvayətində isə ilk beyət edən – Əlidən (ə) sonra – Əmmar olmuşdu. İmam Əli (ə) aşağıdakı ayədəki xüsusiyyətlərə ən layiq olandır. Allah-təala buyurur: **"Həqiqətən Allah möminlərin canlarını və mallarını onlardan Cənnətin onların olması bahasına alıb. (Bu malın verilmək tərzi belədir ki, onlar) Allah yolunda vuruşurlar, beləliklə, öldürürlər və öldürülürlər (və öz mallarından Allah yolunda xərcləyirlər). (Bu alver) Onun öhdəsində olan – (Onun əzəli elmindən başqa, həm də Lövhi-Məhfuzda qeyd olunmuş və alver sənədi kimi) Tövrat, İncil və Quranda (yazılmış) haqq bir vəddir. Allahdan başqa kim öz əhdinə daha vəfalıdır?! Buna görə də etdiyiniz bu alverə şad olun. Budur böyük uğur və qurtuluş!"**[38]

Bütün tarixçilər Cabir bin Abdullah Ənsaridən belə nəql edirlər: "Rəsulullahla (s) onun uğrunda ölmək şərtilə beyət etdik." Mərifətu nəsəvi kitabında qeyd olunur ki, Səlmədən[39] soruşdular: "Hansı şərtlə ağac altında beyət etdiniz?" O, belə dedi: "Onun uğrunda ölmək şərtilə".

---

[38] Tövbə surəsi, ayə 111.

[39] Sələmə bin Əkvə.

Bəsrəlilərin nəql etdiyi rəvayətlərdə Əhməd bin Yasar belə nəql edir: “Hüdeybiyyədə olanlar Rəsulullaha beyət etdilər ki, onu tək qoyub qaçmasınlar. Doğru olan budur ki, o, (Əli) heç vaxt qaçmamışdır. Başqası barədə isə bu, sabit deyil. Ubəyin rəvayətinə əsasən min üç yüz, Cabir bin Abdullahın rəvayətinə əsasən min dörd yüz, İbn Müseyyibin rəvayətinə əsasən min beş yüz, İbn Abbasın rəvayətinə əsasən isə min altı yüz nəfər bu beyətdə iştirak etmişdir. Şübhəsiz ki, onların arasında Cidd bin Qeys, Abdullah bin Ubəy Səluli kimi münafiqlər də vardı. Allah-təala möminlərdən razı qalmasını onların qəlblərindəki iman vəsfindən asılı olamasını bildirərək belə buyurur: **“...onların qəlblərində olanı (niyyətlərinin saf və gözəlliyini) bildi, nəticədə onlara (ürək) rahatlığı və xatircəmlik nazil etdi...”**[40]

Səddi və Mücahid belə nəql edirlər: “Beyət edənlərin içərisində Allahın razı qaldığı ilk şəxs Əlidir. Allah onun qəlbindəki doğruluğu və vəfanı bilirdi”.[41]

---

[40] Fəth surəsi, ayə 18.

[41] İbn Şəhr Aşub, “əl-Mənaqib”, c. 2, səh. 28-29.

# 7. İlk dəfə vəsi adlanan şəxs

Həzrət Rəsulullah (s) İslamın meydana çıxdığı ilk gündən vəsi ləqəbini İmam Əliyə (ə) verib. Peyğəmbər öz yaxın qohum-əqrəbasını xəbərdar edərkən Əlinin (ə) əlindən tutaraq belə buyurmuşdu: "Bu mənim qardaşım, vəsim, vəzirim (yardımçım) və sizin aranızdakı xəlifəmdir. Ona qulaq asın və itaət edin!" [42]

Əli Rəsulullahın (s) vəsisi və yardımçısı idi. Peyğəmbər bütün səhabələri bir-birinə qardaş elan etdi. Lakin onu (Əlini) heç kimlə qardaş etmədi. Əli dedi: "Ey Allahın rəsulu, mən qardaşsız qaldım!". Peyğəmbər (s) buyurdu: "Səni özüm üçün saxladım. Sən dünya və axirətdə mənim qardaşımsan. Sən mənim vəsim, məndən sonra xəlifəm və məndən sonra ailəmdə qalan ən xeyirli olansan. Sənin mənə nisbətin Harunun Musaya olan nisbəti kimidir. Yalnız məndən sonra peyğəmbər yoxdur".[43]

Peyğəmbər (s) bu sözləri dəfələrlə müxtəlif məqamlarda söyləmişdir. O, sözü, əməli və təsdiqi ilə daima bu məsələni təkid etmişdir. Bu haqda nəql olunan rəvayətlər olduqca çoxdur. Deməli, İmam Əli (ə) vəsi adlanan ilk şəxsdir. Ona bu adı Rəsulullah (s) vermişdir.

İmam Əli (ə) Allahın əmri ilə Peyğəmbərin (s) vəsisi və xəlifəsi seçilmişdir. Qurani-kərimdə buyurulur: **"Ey Peyğəmbər, Rəbbin tərəfindən sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların**

---

[42] Şeyx Tusi, "əl-Əmali", səh. 447.

[43] Qazi Məğribi, "əl-Mənaqib vəl-məsalib", səh. 207.

**fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz”.**[44] Rəsulullah (s) məşhur Qədir-xum hadisəsində İmam Əlini (ə) özündən sonra vəsi təyin etdi. Çünki rəhbərlik, öndərlik, məsumluq, elm, kamillik kimi itaəti vacib olan imamın xüsusiyyətləri onda cəm olmuşdur. Qədir-xum hadisəsi barəsində mübahisə edilməyəcək dərəcədə sabit həqiqətdir. Bu həqiqəti inkar etmək olmaz. Hər iki məzhəbin hədis alimləri Qədir-xum hadisəsini etibarlı hesab edirlər. Qədir-xum günü Rəsulullah (s) buyurub: “Mən kimin mövlasıyamsa, Əli də onun mövlasıdır. İlahi, ona dost olana dost ol! Ona düşmən olana düşmən ol! Onu xar edəni xar et! Ona kömək edənə kömək et! O, harda olsa, haqqı da onunla birgə et!”[45]

Əllamə Əmini məşhur “əl-Ğədir fil-kitabi vəs-sünnəti vəl-ədəb” kitabında qeyd edir ki, səhabələrdən 110, tabeinlərdən isə 84 nəfər Qədir-xum hədisini rəvayət etmişdir. Qədir hədisinin ravilərinin təbəqələrinə gəlincə, hədis alimləri və hafizlərindən 360 alim və mühəddisdən ibarətdir. Bu isə qədir hədisinin ən etibarlı və mütəvatir olan hədislərdən olduğunu bir daha təsdiqləyir. Bu hədis o qədər səhih və mətn cəhətdən o qədər sağlamdır ki, heç kim onu inkar edə bilməz.

---

[44] Maidə surəsi, ayə 65.

[45] Qazi Məğribi, “Dəaimul-İslam”, c. 1, səh. 20.

# 8. İslamda ilk imam

İslamda ilk dəfə imam titulu məhz İmam Əliyə (ə) verilmişdir. Burada imam kəlməsindən məqsəd sözlərinə və əməllərinə iqtida olunması vacib olan müsəlmanların rəhbəridir. İmamət xilafət kəlməsinin sinonimidir. O, Rəsulullahdan (s) sonra müsəlmanların rəhbəri və imamıdır. Rəsulullah (s) imam kəlməsini Əliyə (ə) aid etməklə onun özündən sonra müsəlmanların imamı olmasına işarə etmişdir.

Şəbi belə deyir: "Əli (ə) deyib: "Peyğəmbər (s) buyurdu: "Müsəlmanların ağasına və təqvalıların imamına salam olsun!""[46]

Abdullah bin Zürarə belə nəql edir: "Əli barəsində üç məsələ mənə vəhy olunub; o, müsəlmanların ağası, təqvalıların imamı və dəstəmazdan əl-ayağı ağ olanların rəhbəridir".[47]

Bəzən isə Peyğəmbər(s) onu əməlisaleh insanların imamı adlandırmışdır. Cabir bin Abdullahın belə dediyi nəql olunur: "Rəsulullah (s) Əlinin (ə) (əlindən) tutub belə buyurdu: "Bu, əməlisaleh insanların imamı və facirlərin (günahkar canilərin) qatilidir. Onu xar edən özü xar olar, ona kömək edənə köməklik olunar". [48]

---

[46] İbn Şəhru Aşub, "əl-Mənaqib", c. 3, səh. 19; İbn Tavus, "əl-Yəqin", səh. 471.
[47] İsfahani, "Mənaqiui Əli bin Əbu Talib", səh. 58.
[48] Gündizi, "Yənabiul-məvəddə", c. 2, səh. 214; "əl-Müstədrək aləs-səhiheyn", c. 3, səh. 140, hədis 4644.

## 9. Əmirəlmöminin ləqəbini daşıyan ilk şəxs

Həzrət Rəsulullah (s) hələ sağ ikən İmam Əliyə (ə) əmirəlmöminin (möminlərin əmiri) ləqəbini vermişdi. Bu ləqəb ilk dəfə ona verilmişdir. Artıq əmirəlmöminin dedikdə İmam Əli (ə) başa düşülür. Rəsulullahın (s) Əliyə (ə) belə buyurduğu nəql olunur: "Sən müsəlmanların imamı, möminlərin əmiri, dəstəmaz yerləri ağ olanların rəhbəri, məndən sonra bütün məxluqatın üzərində Allahın höccəti, vəsilərin ağası və peyğəmbərlərin ağasının vəsisisən".[49]

Həmçinin İmam Əlinin (ə) barəsində belə buyurmuşdur: "Müsəlmanların imamı, möminlərin əmiri və məndən sonra onların mövlası Əli bin Əbu Talibdir".[50]

Ənəs bin Malikdən belə nəql olunur: "Rəsulullah (s) buyurdu: "Mənim üçün su tök". Dəstəmaz alıb iki rükət namaz qıldı. Sonra belə buyurdu: "Ey Ənəs, bu qapıdan ilk olaraq möminlərin əmiri, dəstamaz yerləri ağ olanların rəhbəri və möminlərin ağası Əli daxil olacaq".

Əla bin Müseyyib Davuddan, o da Bureydə Əsləminin belə dediyini nəql edir: "Rəsulullah (s) bizə əmr etmişdi ki, Əliyə əmirəlmöminin deyərək salam verək. Biz yeddi nəfər idik. Həmin vaxt mən oradakıların ən kiçiyi idim".[51]

Biharul-ənvar kitabında qeyd olunan rəvayət daha müfəssəl nəql olunmuşdur. Həmin rəvayətdə deyilir: "Rə-

---

[49] İbn Tavus, "ət-Təhsin", səh. 563.
[50] Əllamə Məclisi, "Biharul-ənvar", c. 8, səh. 22.
[51] İbn Əsakir, "Tarixu Diməşq", c. 42, səh. 303; İbn Həcər, "Lisanul-mizan", c. 1, səh. 107.

sulullah (s) Ənəsə dedi: "Ey Ənəs dəstəmaz almaq üçün su tök". Sonra belə buyurdu: "Ey Ənəs, bu qapıdan ilk olaraq möminlərin əmiri, müsəlmanların ağası, dəstamaz yerləri ağ olanların rəhbəri və vəsilərin sonuncususu daxil olacaq". Ənəs deyir: " Həmin vaxt özlüyümdə deyirdim: - İlahi, onu ənsardan olacaq birinə qismət elə. Əli (ə) gəldikdə ona xəbər vermədən (qaytardım).

Peyğəmbər dedi: "O kimdir, ey Ənəs?"

Mən: "Əli" -deyə cavab verdim. Sevinərək ayağa qalxıb onu qucaqladı. Sonra öz üzünün tərini onun üzünə sürtməyə başladı. (Əli) dedi: "Ey Allahın Rəsulu, görürəm ki, əvvəllər etmədiyin bir şey edirsən". Peyğəmbər dedi: " Heç nə mənə mane ola bilməz. Sən mənim əvəzimdən işlərimi yerinə yetirəcək, onlara mənim səsimi çatdıracaq və məndən sonra ixtilafa düşdükləri məsələləri onlara bəyan edəcəksən".[52]

Həzrət Rəsulullah (s) İmam Əlini (ə) bu ləqəblə adlandırmaqla kifayətlənməmiş, hətta səhabələrinə ona Əmirəlmöminin deyə xitab edərək salam verməlsərini əmr etmişdir. Hüzeyfə bin Yəmanın azad etdiyi qul olan Salim belə nəql edir: "Peyğəmbər (s) bizə əmr etmişdi ki, Əli bin Əbu Talibə "əs-səlamu aleykə ya əmirəlmöminin və rəhmətullahi və bərəkatuh" deyərək salam verək".[53]

---

[52] Əllamə Məclisi, "Biharul-ənvar", c. 40, səh. 15.
[53] İsfəhani, "Mənaqibu Əli bin Əbi Talib", səh. 55.

# 10. İslamın ilk fədaisi

İmam Əli (ə) İslamın ilk fədaisi hesab olunur. O, digərlərindən daha çox Peyğəmbərin (s) uğrunda özünü fəda etməyə can atmışdır. Buna ən bariz nümunə müşriklərin Peyğəmbəri (s) yatağında qətlə yetirmək istədikləri vaxt olmuşdur. Rəsulullah (s) bunu bildikdə İmam Əliyə (ə) onun yatağında yatmağını əmr etdi. İmam Əli (ə) fədakarlıq nümayiş etdirərək heç bir tərəddüd etməmişdir.

Bu hadisə bir çox tarix və hədis kitablarında qeyd olunmuşdur. İbn Hişam "əs-Siyrətun-nəbəviyyə kitabında belə nəql edir: "Əbu Cəhl bin Hişam dedi: "Allaha and olsun ki, mənim bir fikrim var. Mənim elə bir fikrim var ki, bundan sonra ona qalib gəcəkəsiniz". Camaat: "Sənin fikrin nədir, ey Əbu Həkəm[54]?" – deyə soruşdu. Əbu Cəhl dedi: "Mənim fikrim budur ki, hər bir qəbilədən nəsəbi güclü və içimizdə orta təbəqədən olan bir gənc seçək. Sonra hər bir gəncə kəskin qılınc verək. Daha sonra ona (Peyğəmbərə) hücum etsinlər, bir nəfər kimi hamı zərbə endirib onu qətlə yetirsinlər. Bununla da canımız ondan qurtarsın. Əgər belə etsələr, onun qanı qəbilələr arasında batacaq. Bəni Əbdu Manaf bütün qəbilələrdən qisas ala bilməyəcək. Bizdən diyə almaqla kifayətlənəcəklər. Biz də onlara diyə verərik".

Şeyx Nəcdi belə deyir: "Ən doğru sözü bu kişi demişdir. Bu rəydən başqa çıxış yolu yox idi. Onlar hücüm etmək üçün bir yerə cəm oldular. Cəbrayıl (ə) Rəsulullahın (s) yanına gəlib: " Bu gecə hər gecə yatdığın yataqda yatma!"

[54] Əbu Cəhlin künyəsi Əbu Həkəm idi. Həzrət Rəsulullah (s) cahillik və təəssübkeşlik etməsinə görə onu Əbu Cəhl adlandırırdı.

Elə ki, gecənin qaranılğı çökdü o həzrətin qapısı yanında toplaşdılar. Peyğəmbərin nə vaxt yatağında uzanacağını gözləyirdilər. Rəsulullah (s) onların yerini bildikdən sonra Əliyə (ə) dedi: "Mənim bu yaşıl həzrəmi əbamı üstünə ört və burada yat! Onlar sənə sevmədiyin bir şey edə bilməzlər". Rəsulullah (s) yatmaq istəyəndə həmşə yaşıl həzrəmi əbasını üstünə örtərdi!"

İbn İshaq belə deyir: "Yezid bin Ziyad Muhəmməd bin Kəb Qərzidən belə nəql edir: "Onlar (müşriklər) onu qətlə yetirmək üçün cəm oldular. Əbu Cəhl də aralarında idi. Qapının yanında toplaşanda Əbu Cəhl dedi: "Muhəmməd iddia edir ki, əgər siz ona tabe olsanız ərəb və əcəmin kralı olacaqsınız. Öldükdən sonra diriləcəksiniz. Sizin Urdun (İordaniya) bağları kimi cənnətləriniz olacaq. Əgər ona tabe olmasanız o, sizi qətlə yetirəcək. Öldükdən sonra diriləcəksiniz və cəhənnəm odunda yanacaqsıız". Sonra (Ravi) belə deyir: "Rəsulullah (s) evdən çıxdı və əlinə bir ovuc torpaq götürüb dedi: "Bəli mən belə deyirəm. Sən onlardan birisən. Allah-təala onların gözlərini bağladı və onlar Peyğəmbəri görmədilər. Peyğəmbər onların başına torpaq səpərək Yasin surəsindən bu ayələri oxuyurdu: **"Ya, Sin. (Bu hərflər Allahla Onun Rəsulu arasında olan rəmzlərdir. Bu kitab həmin bu hərflərdən təşkil olunmuşdur, lakin heç kimin onun bənzərini gətirmək qüdrəti yoxdur. Və bu kitabın möhkəm ayələri və bu cür də mütəşabih ayələri vardır. Ey, insaniyyətdə yeganə olan kəs,) Bu hikmətli (batilin ziyanı müqabilində möhkəm olan, hikmətlə danışan, haqla batilin arasında hökm edən və əqli mərifətlər və səmavi şəriətlərə malik olan) Qurana and olsun ki, şübhəsiz, Sən (Allah) peyğəmbərləri (zümrəsi) ndənsən (peyğəmbərliyə seçildiyin vaxtdan insanların**

**nəsilləri kəsilincəyədək onlara göndərilmisən). (Sən) düzgün olan bir yoldasan (şəriət elmləri və əqli mərifətlər yolunda). (Bu), qüdrətli və mehriban (Allah tərəfindən) nazil edilmiş (bir kitab)dır. (Mehribanlığı Qur'anın nazil olmağına bir səbəb, qüdrəti isə onun icrasına zamindir). (Bu kitabla) elə bir qövmü qorxudasan ki, ata – babaları (İsanın, yaxud İbrahimin zamanından bəri) qorxudulmamışlar, buna görə də (din həqiqətlərindən) qafildirlər. Şübhəsiz, onların əksəriyyətinə (Allahın Lövhi – Məhfuzda dərc olan) sözü:(«Cəhənnəm onların yeridir» sözləri) sabit olmuş və həyata keçmişdir, buna görə də daha iman gətirməzlər. Həqiqətən, Biz onların boyunlarına çənələrinə kimi çatan zəncirlər keçirmişik, buna görə də başları yuxarı doğru qalmışdır. (buna görə də özlərinə baxa bilmirlər ki, özlərində olan ayələrlə (nişanələrlə) ayılsınlar). Biz onların önlərindən və arxalarından sədd çəkib onları (hər bir tərəfdən) örtdük (yaxud gözlərini kor etdik). Buna görə də görmürlər (öz ətraflarını görə bilmirlər ki, təbiət aləmində nişanələrlə ayılsınlar).”**[55]

Rəsulullah (s) bu ayələri oxuyub qurtaranadək onların hər birinin başına torpaq səpdi. Sonra isə getmək istədiyi yerə tərəf üz tutdu. Onlarla olmayan bir nəfər gəlib onlara: “Burada kimi gözləyirsiniz?” – deyə soruşdu. Onlar: “Muhəmmədi” deyə cavab verdilər. Həmin adam dedi: “Allah sizi zəlil etsin! Muhəmməd sizin yanınıza gəlib və aranızda elə bir adam yoxdur ki, onun başına torpaq tökməsin. Sonra da çıxıb gedib. Görmürsünüz nə haldasınız?!” Onlar hər biri əlini başına çəkdi və başlarında torpaq olduğunu

[55] Yasin surəsi, ayə 1-9.

gördülər. Sonra evin içinə baxıb Peyğəmbərin (s) əbasına bürünüb uzanmış halda Əlini gördülər və belə dedilər: "Allaha and olsun ki, bu, Muhəmməddir! Əbasına bürünüb yatır. Səhərə kimi gözlədilər. Əli yataqdan durduqda isə belə dedilər: "Allaha and olsun ki, o adam bizə doğru deyirmiş!"

İbn İshaq deyir: "Həmin gün olanlar barədə Allah-təala bu ayələri nazil etmişdir: **"Və (yada sal) o zaman(ı) ki, kafirlər sənin barəndə - səni həbs etmək, ya öldürmək və ya (şəhərdən) çıxarmaq üçün hiylə və biclik işlədirdilər. Onlar daim hiylə işlədirdilər və Allah da onların hiylələrinin qarşısını alırdı. Allah hiylənin qarşısını alanların ən yaxşısıdır".**[56] **"Yoxsa onlar (sənin haqqında) «o, şairdir; onun üçün zamanın hadisələrini və ölümün gəlməsini gözləyirik» deyirlər. De: «Gözləyin! Mən də mütləq, sizinlə gözləyənlərdənəm (Allahın əzabının sizə gəlməsini gözləyirəm)»**.[57]

İbn İshaq deyir: "Bundan sonra Allah-təala peyğəmbərinə hicrət etmək icazəsi verdi.[58]

İmam Əlinin (ə) Rəsulullahın (s) və İslam dininin uğrunda etdikləri fədakarlıqlar olduqca çoxdur. Həqiqətən də, İmam Əli (ə) İslamın ilk fədaisidir.

---

[56] Ənfal surəsi, ayə 30.

[57] Tur surəsi, ayə 30-31.

[58] İbn Hişam, "əs-Siyrətun-nəbi", c. 2, səh. 108-110; Təbəri, "Tarixu Təbəri", c. 2, səh. 99; İbn Kəsir, "əl-Bidayə vən-nihayə", c. 3, səh. 216; İbn Seyyidinnas, "Uyunul-əsər", c. 1, səh. 234; Salihi Şami, "Səbilul-huda vərrəşad", c. 3, səh. 232.

## 11. Allah yolunda ilk mücahid

Rəsulullahın (s) səhabələri arasında ən bariz mücahidlər İmam Əli (ə), Allahın aslanı Həmzə bin Əbdulmüttəlib, Zübeyr bin Əvvam və başqaları olmuşdurlar. Lakin Allah yolunda ilk mücahid şəxs, həmçinin mücahidlər arasında ən barizi İmam Əli (ə) olmuşdur. O, Peyğəmbərin üzündən qəm-qüssəni aparmış, o həzrətin qatıldığı bütün savaşlarda iştirak etmiş və döyüşün qızğın çağlarında onun uğrunda fədakarlıq nümayiş etdirmişdir. O həzrət heç bir savaşda geri çəkilməmişdir. Düşmənə ikincisinə ehtiyac olmayan tək bir zərbə endirərdi. Hədisdə "onun vurduğu zərbə tək olardı"[59] deyə nəql olunur.

Şücaətə gəlincə, o həzrət özündən əvvəlkilərin şücaətini unutdurmuş, sonra gələnlərin adlarını isə şücaət siyahısından silmişdir. Onun döyüş meydanındakı şücaətləri o qədər məşhurdur ki, qiyamətə qədər zərb-məsəl vurulacaq. O, qatıldığı hər döyüşdə düşməni məğlub etmişdir və heç vaxt düşmən qabağından qaçmamışdır.

İmam Əlinin (ə) Bədr döyüşündə - İslamın ilk döyüşündə - savaş meydanına çıxan ilk şəxs olması barədə tarixçilər arasında heç bir ixtilaf yoxdur. O, Bədr döyüşündə Vəlid bin Utbəni qətlə yetirmişdi. Həmçinin Bədr döyüşündə qətl olunan müşriklərin yarısını o həzrət qətlə yetirmişdir.

İbn Əbulhədid deyir: "Onun Allah yolunda cihad etməsinə gəlincə, düşməni də, dostu da, etiraf etmişdir ki, o, mücahidlərin ağasıdır. İnsanlar içərisində onun kimi cihad

---

[59] Əllamə Məclisi, "Biharul-ənvar", c. 41, səh. 143.

edən biri varmı?! Məlumdur ki, Rəsulullahın (s) müşriklərə qarşı qatıldığı ən böyük savaş Böyük Bədr döyüşü olmuşdur. Həmin döyüşdə müşriklərdən yetmiş nəfər qətlə yetirilmişdir. Təkcə Əli onların yarısını qətlə yetirmişdir. Digər yarısını isə müsəlmanlar və mələklər qətlə yetirmişdi. Muhəmməd bin Ömər əl-Vaqidinin "əl-Məğazi", Yəhya bin Cabir Bəlazurinin "Tarixul-əşraf" əsərlərinə və başqa kitablara müraciət etsən, bu məsələnin doğruluğunu təsdiqləyərsən. Hələ onun Ühüd, Xəndək və başqa döyüşlərdə qətlə yetirdiklərini bir kənara qoy! (Təkcə Bədr savaşında qətlə yetirdikləri kifayətdir). Bu barədə çoxlu danışmağa ehtiyac yoxdur. Çünki bu məsələ Məkkə, Misir və digər şəhərlərin tanınması kimi inkar olunmaz məsələlərdəndir".[60]

[60] İbn Əbulhıdid, "Şərhu nəhcil-bəlağə", c. 1, səh. 41.

## 12. İslamda ilk qazı

Həzrət Rəsulullah (s) üç nəfəri qazı təyin etmişdi. Onlardan başqasını təyin etməmişdir. Həmin üç nəfəri Yəmənə təyin etmişdi. Onların birincisi İmam Əli (ə) olmuşdu. O həzrət özü bu barədə danışarkən belə buyurmuşdu: "Rəsulullah (s) məni qazı təyin edərək göndərdi. Mən belə dedim: "Məni yaşlı bir qövmə qazı olaraq göndərirsən. Mənim yaşım azdı. Qəzavət (məhkəmə) məsələlərində bilgim yoxdu". Rəsulullah əlini sinəmin üstünə qoyub buyurdu: "Allah səni sabit qədəm etsin və səni düz yolda qərar versin! Əgər münaqişəsi olan iki nəfər sənin yanına gəlsə hər ikisini dinləmədən onların barəsinə hökm çıxartma! Bu, hadisənin mahiyyətini bilməyin üçün çox lazımdır". (İmam Əli) deyir: "Bundan sonra qazılıq eməyə başladım".[61]

Kənzul-ummal kitabında İmam Əlinin (ə) belə buyurduğu nəql olunur: "Rəsulullah (s) məni Yəmən əhalisi arasında hökm vermək üçün göndərdi. Mən dedim: "Ey Allahın Rəsulu! Məni göndərirsən, amma mən gəncəm. Qəzavət məsələlərini bilmirəm". Əlini mənim sinəmə vurub buyurdu: "İlahi, onun qəlbini (haqqa) hidayət elə və dilini xətadan qoru!" Bundan sonra indiki yerimdə oturanadək iki nəfər arasında hökm verərkən heç vaxt şübhə etməmişəm".[62]

Əmr bin Mərrənin Əbulbuxtəridən belə eşitdiyi nəql olunur: "Əlidən (ə) eşidən biri mənə belə nəql edib: "Rəsulullah (s) məni Yəmənə göndərəndə dedim: "Ya Rəsu-

[61] Seyid Haşim Bəhrani, "Ğayətul-məram", c. 5, səh. 252.
[62] Kənzul-ummal, c. 13, səh. 120, hədis 36386.

lullah, yaşım az olduğu halda məni göndərirsən. Halbuki mən qəzavət məsələləri barədə çox bilmirəm”. Rəsulullah onun sinəsinə vurub buyurdu: “Allah dilini doğru, qəlbini isə (haqqa) hidayət edəcək”. (Əli) belə dedi: “Bundan sonra iki tərəf arasında hökm verməyə başladım”.[63]

[63] İsfəhani, “Mənaqibu Əli bin Əbu Talib”, səh. 90-91.

## 13. İslamın bayrağını daşıyan ilk şəxs

Tarixçilər qeyd edir ki, İmam Əli (ə) Təbuk döyüşündən başqa Peyğəmbərin (s) bütün döyüşlərində İslam bayrağını daşıyan ilk şəxsidr. O həzrət yalnız Təbuk yürüşündə iştirak etməmişdir. Çünki Rəsulullah (s) onu Mədinəyə başçı təyin etmişdi. Şeyx Mufid deyir: "Qüreyşin bayrağı və pərçəmi həmişə Qusey bin Kilabın əlində olmuşdur. Sonra bayrağı Əbdülmüttəlib övladlarından hansı biri hər hansı döyüşdə iştirak edərdisə bayrağı o daşıyardı. Peyğəmbər (s) göndərilənədək belə olmuşdu. Peyğəmbər gəldikdə Qüreyşin bayrağı onun ixtiyarında oldu. Rəsulullah (s) bayrağın Bəni Haşimdə qalmasına hökm verərək Vidan ğəzvəsində bayrağı Əli bin Əbu Talibə verdi. Bu yürüş İslamda ilk dəfə ucalan bayraqla baş verən yürüş olmuşdur. Sonra bir çox məqamlarda və Böyük Bədr döyüşündə də belə olmuşdur. Ühüd döyüşündə döyüş pərçəmi Bəni Əbduddar övladlarında idi. Rəsulullah (s) bayrağı Musəb bin Umeyrə verdi. O şəhid olduqda pərçəm əlindən yerə düşdü. Qəbilələr hamısı pərçəmi götürmək istəyirdi. Rəsulullah (s) pərçəmi götürüb Əli bin Əbu Talibə (ə) verdi. Həmin gün Əli bin Əbu Talib (ə) həm bayrağı həm də döyüş pərçəmini daşıyırdı. Bu günə kimi bayraq və döyüş pərçəmi Bəni Haşimə məxsusdur".[64]

Mufəzzəl bin Abdullah Səmmakdan, o da İkrimədən, o da Abdullah bin Abbasın ona Əli bin Əbu Talib barəsində belə dediyini nəql edir: "Dörd şey ondan başqa heç kimə qismət olmayıb: O, Peyğəmbərlə (s) birlikdə namaz qılan

[64] Şeyx Mufid, "əl-İrşad", səh. 42.

ərəb və əcəm içərisində ilk şəxsdir. O, hər döyüşdə bayrağı daşımışdır. Ühüd günü hamının qaçdığı vaxt yalnız o, (döyüş meydanında) Peyğəmbərin (s) yanında qalmışdı. Həmçinin o, Peyğəmbəri dəfn etmişdi”.[65]

Qütadənin belə dediyi nəql olunur: “Əli bin Əbu Talib (ə) Bədr döyüşündə, eləcə də bütün döyüşlərdə Rəsulullahın (s) bayrağını daşıyan şəxs idi”.[66]

Seyid Cəfər Murtəza Amuli İmam Əlinin (ə) bütün döyüşlərdə və yürüşlərdə İslam bayrağını daşımasına dəlalət edən çoxlu sayda dəlillər qeyd etmişdir. Həmin dəlillərdən bəzilərini aşağıda qeyd edirik:

İbn Abbasın belə dediyi nəql olunur: “Bədr döyüşü günü Əli Rəsulullahın (s) bayrağını daşımışdır”. Hakim belə deyir: “Bütün döyüşlərdə”.

Malik bin Dinardan belə nəql olunur: “Səid bin Cubeyr və onun Quran qarisi olan qardaşlarından “Rəsulullahın (s) bayrağını kim daşıyırdı?” - deyə soruşdum. Hamısı belə dedi: “Bayrağı Əli daşıyırdı”.

Başqa bir hədisdə belə deyilir: “Malik Səiddən bu barədə soruşduqda Səid qəzəbləndi. Malik ondan Quran qarisi olan qardaşlarına şikayət etdi. Malikə dedilər ki, o, Həccacdan qorxduğu üçün belə eləmişdir. O, yenidən Səiddən soruşduqda belə cavab vermişdi: “Bayrağı Əli daşıyırdı”. (Malik deyir:) “Abdullah bin Abbasdan da belə eşitmişəm”. Malik bin Dinardan nəql olunan digər bir rəvayətdə belə deyilir: “Səid bin Cubeyrdən “Rəsulullahın (s) bayrağını kim daşıyırdı?” – deyə soruşdum. O, belə dedi: “Həqiqətən də sən ağılsızsan”.

---

[65] Şeyx Mufid, “əl-İrşad”, səh. 42.
[66] İbn Səd, “ət-Təbəqatul-kubra”, c. 3, səh. 23.

Muəbbid əl-Cəhəni mənə dedi: “Mən sənə deyərəm. Yol gedərkən bayrağı Meysər əl-Əbəsi daşıyardı. Döyüş başlayanda Əli bin Əbu Talib bayrağı götürərdi.

Cabirdən belə nəql olunur: “(Camaat) dedi: “Ya Rəsulullah, qiyamət günü sənin bayrağını kim daşıyacaq?” (Peyğəmbər) buyurdu: “Qiyamət günü bayrağımı yalnız bu dünyada daşıyan şəxs – Əli bin Əbu Talib daşıyacaq”.

Səd bin Əbu Vəqqas insanların içərisində Əlini söyən bir kişinin yanından keçərkən dayandı və belə dedi: “Ey sən! Nə üçün Əli bin Əbu Talibi söyürsən ? Məgər o, ilk müsəlman olan şəxs deyilmi? Məgər o, Rəsulullahla (s) birlikdə namaz qılan ilk şəxs deyilmi? Məgər o, insanların ən zahidi deyilmi?” Məgər o, insanlarn ən biliklisi deyilmi? (Əlinin xüsusiyyətlərini) qeyd edərək sonda belə dedi: “Məgər Peyğəmbərin (s) döyüşlərində onun bayraqdarı olmamışdırmı?” Onun sözlərindən belə məlum olur ki, qeyd etdikləri İmam Əliyə məxsus olan xüsusiyyətlərdir.

Məqsəm belə nəql edir: “Peyğəmbərin (s) bayrağı Əli bin Əbu Talibdə olardı. Ənsarın bayrağı isə Səd bin Ubadədə olardı. Döyüşün qızğın çağında Peyğəmbər Ənsarın bayrağının altında olanlarla birgə olardı.

Amirdən belə nəql olunur: “Peyğəmbərin bayrağı Əli bin Əbu Talibdə olardı. Digər bir bayraq da ənsarda olardı. Hara getsələr özləri ilə aparardılar”.

Ola bilsin ki, yuxarıdakı iki rəvayət bayrağın həmişə Əlidə (ə) olmasına aşkarcasına dəlalət etmir. Lakin bu iki rəvayətin zahirinə əsasən belə olduğunu demək olar.

Suləbə bin Əbu Malik belə nəql edir: “Rəsulullahın (s) bayrağını hər yerdə Səd bin Ubədə daşıyırdı. Elə ki, döyüş başlayardı bayrağı Əli bin Əbu Talib götürərdi.

İbn Həmzə belə deyir: "Elm əhlindən yalnız belə nəql olunub ki, Əli bin Əbu Talib elə bir döyüşə qatılmamışdır ki, ordunun sərkərdəsi olmasın". Başqa bir hədisdə deyilir: "Əli (ə) belə dedi: "Sizi Allaha and verirəm! Deyin görək Rəsulullah (s) peyğəmbər olaraq göndərildiyi gündən vəfat edən günədək məndan başqa biri onun bayrağını daşımışdırmı?" (Orada olanlar) dedilər: "Allaha and olsun ki, yox!"[67]

Qeyd etdiyimiz bu hədislər dəlalət edir ki, İmam Əli (ə) İslamın bayrağını və bütün döyüşlərdə və hərbi yürüşlərdə döyüş pərçəmini daşıyan ilk şəxs olmuşdur.

---

[67] Seyid Cəfər Murtəza Amuli, "Səhih min siyrətin-nəbiyyil-əzəm", c. 7, səh. 99-102.

## 14. İlk haşimi xəlifə

İmam Əli (ə) Bəni Haşimdən olan ilk haşimi xəlifədir. Hətta o, Haşimi ata-anadan dünyaya gələn ilk xəlifədir. Bu hörmətli ərəb ailəsinin məşhur olduğu bütün gözəl xüsusiyyətlər o həzrətdə cəm olmuşdu. Onun atası Məkkənin seyidi və Qüreyşin ağsaqqalı Əbu Talib bin Əbdulmüttəlib bin Haşimdir. Anasına gəlincə, o, Fatimə bint Əsəd bin Haşimdir. Bu möminə xanım İslamı ilk qəbul edənlərdən olmuşdu. Peyğəmbərin (s) anası Aminə binti Vəhəb vəfat etdikdən sonra bu qadın Allah Rəsuluna öz ağuşun açmış və onu böyüdüb ərsəyə yetirmişdir. Həmin vaxt Peyğəmbərin altı yaşı belə tamam olmamışdı.

İmam Əlidən (ə) sonra haşimilərdən yalnız onun oğlu İmam Həsən (ə) və Muhəmməd Əmin bin Harun-Rəşid xəlifə olmuşdur. Çünki Əminin anası Zübydə Cəfər bin Əbu Cəfər Mənsurun qızı idi.

## 15. İslamda ilk kitab yazan şəxs

İmam Əli (ə) İslamda ilk kitab yazan şəxs hesab olunur. Şərif Rəzinin toplayaraq qələmə aldığı Nəhcul-bəlağə kitabı İmam Əlinin (ə) ən məşhur xütbələrini, məktublarını, öyüd-nəsihətlərini və hikmətamiz kəlamlarını ehtiva edir. Həmçinin tarix və tərcümeyi-hal kitabları İmam Əliyə (ə) mənsub olan "Kitabul-fəraiz" və ya "Fəraizu Əli" adlı kitabın olmasından bəhs açır. Həmin kitab əhli-beyt imamlarındadır. Onların etibarlı səhabələri və şagirdləri bu barədə nəql etmişlər.

İmam Əli (ə) Malik Əştəri Misirə vali təyin edərkən ona yazdığı əhdnamə dövlətçilik və idarəçilik sahəsində ən əhəmiyyətli qanunları özündə əks etdirir.

Bundan başqa Əli bin Racih fiqh elmi sahəsində İmam Əlidən (ə) rəvayətlər nəql etmişdir. Nisaiyə gəlincə, o, İmam Əliyə nisbət verilən hədis və rəvayətləri "Müsnədi Əli" adlandırdığı bir kitab halında toplamışdı.

## 16. Nəhv elminin əsasını qoyan şəxs

Tarixçilərə məlumdur ki, nəhv elminin əsasını qoyan, qayda-qanunlarını tənzimləyən ilk şəx məhz İmam Əli (ə) olmuşdur. Əbuləsvəd Duvəli (Zalim bin Əmr) bu elmin qaydalarını ondan götürmüş, inkişaf etdirmiş və nəhv adlandırmışdır. Seyid Muhsin Əmin belə deyir: “Elm əhlinin və ravilərin ittifaqına əsasən nəhv elminin əsasını möminlərin əmiri Əli bin Əbu Talib (ə) qoymuşdur. O, bu qaydaları tabeinlərin hörmətlililərindən olan Əbuləsvəd Duvəli Zalim bin Əmrə öyrətmişdir. Əbuləsvəd Duvəli İmam Əlinin (ə) tövsiyələri və tapşırıqları əsasında bu elmi inkişaf etdirmişdir”. Sonra belə deyir: “Ən doğrusu da budur ki, nəhv elminin əsasını Əli bin Əbu Talib qoymuşdur. Çünki bütün rəvayətlər Əbuləsvəd Duvəliyə istinad edir. O isə, Əliyə istintad edir. Nəql olunur ki, Əbuləsvəd Duvəlidən “bu bilgilər sənə hardandır?” deyə soruşanda belə demişdir: “Bu elminin hədd və hüdudunu Əli bin Əbu Talibdən öyrənmişəm”. Ənbəsətul-fil, Məymunul-qərn, Nəsr bin Asim, Əbdürrəhman bin Hurmuz və Yəhya bin Yəmur bu elmi Əbuləsvəd Duvəlidən götürmüşlər.

İbn Nədim belə deyir: “Bəzi alimlər deyirlər ki, Nəsr bin Asim Əbuləsvəd Duvəlidən öyrənmişdir. Buğyətul-vuat kitabında Yaqutun belə dediyi nəql olunur: “Nəsr Quran və nəhv elmində Əbuləsvədə istinad edirdi”.

Əbulənbarinin Siybəveyhin kitabının şərhində belə dediyi nəql olunur: **“İnnəllahə bəriun minəlmuşrikinə və**

**rəsuluhu”**[68] (Allah və Onun Peyğəmbəri müşriklərdən uzaqdırlar) ayəsində “rəsuluhu” kəlməsinin cərlə[69] (yiyəlik halda) oxunması Peyğəmbərin (s) zamanında baş vermişdi. Peyğəmbər Əliyə nəhv elminin əsasını yaratmağı tapşırmışdı. (İmam Əli) Əbuləsvədə əvamil, hərəkələrin təyin olunması, irab kimi qaydaları öyrətdi. O da, bu məsələləri qələmə aldı. Hər hansı bir çətinliklə qarşılaşdıqda İmam Əliyə (ə) müraciət edərdi. Sonra yazdıqlarını Əmirəlmömininə (ə) təqdim etdi. İmam da onun işini bəyəndi və ona belə dedi: “Nimə mə nəhəvtə” (Məqsədin çox gözəldir!). İmam Əlinin (ə) bu sözündən ilham alınaraq bu elm nəhv adlandırılmışdı. Bu hadisənin Peyğəmbərin zamanında olması ziddiyyətlidir. Çünki həmin dövrdə ərəb dili təhrifdən qorunurdu. Bu, ərəblərin başqa millətlərlə qarışmasından sonra baş vermişdir”.[70]

Əllamə Qəfti “İnbahur-ruvat alə ənbain-nəcat” kitabında belə deyir: “Misirin bütün əhli nəql və təshihdən sonra nəhv elminin əsasının ilk dəfə Əli bin Əbu Talibin qoyduğunu demişlər. Bu elmi Əbuləsvəd Duvəli ondan öyrənmişdir. Əbuləsvəd Duvəlidən Nəsr bin Asim Bəsri öyrənmişdir. Nəsr bin Asimdən Əbu Əmr bin Əla Bəsri öyrənmişdir. Əbu Əmrdən Xəlil bin Əhməd öyrənmişdir. Xəlildən Siybəveyh Əbu Bişr Əmr bin Osman bin Qənbər öyrənmişdir. Siybəveyhdən Əbulhəsən Səid bin Musədə Əxfəşulavsət öyrənmişdir. Əxfəşdən Əbu Osman Bəkr bin Muhəmməd Mazini Şeybani və Əbu Əmr Curmi öyrənmişlər. Mazini və Curmi-

[68] Tövbə surəsi, ayə 3.

[69] Bu ayədə “rəsuluhu” kəlməsi cərlə, yəni “rəsulihi” oxunarsa məna fərqi meydana çıxır. Belə ki, ayənin mənası belə olur: “ Allah müşriklərdən və Peyğəmbərindən uzaqdırlar”.

[70] Seyid Muhsin Əmin, “Əyanuş-şiə”, c. 1, səh. 233.

dən Əbulabbas Muhəmməd bin Yezid Mubərrəd öyrənmişdir. Mubərrəddən Əbu İshaq Zuccac və Əbu Bəkr bin Sərrac öyrənmişlər. İbn Sərrac Əbu Əli Həsən bin Əbdulğəffar Farisi öyrənmişdir. Farisidən Əbulhəsən Əli bin İsa Rəbi öyrənmişdir. Rəbidən Əbu Nəsr Qasim bin Mubaşir Vusta öyrənmişdir. İbn Mubaşirdən Tahir bin Əhməd bin Bəşşaz Misri öyrənmişdir. O, həmçinin Zəccac Əbu Cəfər Nəhhas Əhməd bin İsmail Misridən öyrənmişdir. Nəhhasdan Əbu Bəkr Ədfəi öyrənmişdir. Ədfəidən Əbulhəsən Əli bin İbrahim Hufi öyrənmişdir. Hufidən Tahir bin Əhməd bin Bəşşaz Nəhəvi öyrənmişdir. İbn Bəşşazdan Əbu Abdullah Muhəmməd bin Bərəkat Nəhvi Misri öyrənmişdir. İbn Bərəkatdan və başqasından Əbu Muhəmməd bin Bərri öyrənmişdir. İbn Bərridən Misir və məğrib ölkələrindən gələn bir dəstə elm əhli öyrənmişdir. Əmr bin As məscidində onun şagirdi Xərul-fil ləqəbi ilə tanınan Şeyx Əbulhüseyn Nəhəvi Misri sədarət məqamına yetişmişdir. O, təqribən hicri 620 -ildə vəfat etmişdir”.[71]

İbn Əbulhədid nəhv elminin formalaşmasında İmam Əlinin (ə) roluna işarə edərək belə deyir: “Məlumdur ki, nəhv və ərəb dili elminin əsasının onun tərəfindən yaradılmasını bütün insanlar bilir. O, Əbuləsvəd Duvəliyə bu elmin əsaslarını və qaydalarını imla etmişdir. Həmin qaydalardan biri də budur: Kəlmə üç qismə bölünür: isim, fel və hərf. Həmçinin sözün mərifə (məlum) və nəkirəyə (məchula) bölünməsi, irab baxımından sözün sonunun rəf, nəsb, cər və cəzm olması kimi məsələlər onun öyrətdiklərindəndir. Az qala bu, möcüzələrdən hesab olunsun. Çünki bəşər gücünün belə dəqiq bölgü və mülahizə etməsi yetərli deyil”.[72]

---

[71] Seyid ərəşi Nəcəfi, “Şərhu ihqaqil-həqq”, c. 8, səh. 10.
[72] İbn Əbulədid, “Şərh nəhcil-bəlağə”, c. 1, səh. 38

Əbuləsvəd Duvəli İmam Əlinin (ə) nəhv elminin əsaslarını yaratması barədə danışarkən belə deyir: “Əmirəlmöminin Əlinin (ə) yanına gələndə onu başını aşağı salaraq fikirli halda olduğunu gördüm. Ona dedim: “Nə fikirləşirsən, ya Əmmiərlmöminin?” O, belə dedi: “Sizin məmləkətdə bayağı danışıqla rastlaşdım. İstəyirəm ki, ərəb dilinin əsasları barədə bir şey yazım”. Mən dedim: “Əgər bunu etsən bu dili bizdə yaşadacaqsan”. Bir neçə gündən sonra onun yanına gəldim. Mənə bir səhifə verdi. Orada belə yazılmışdı: “Bismillahir-rəhmanir-rəhim. Kəlmə isim, fel və hərfdir. İsim adlanan şey barədə xəbər veriləndir. Fel adlanan şeyin hərəkəti barədə xəbər veriləndir. Hərf fel və isim olmayan məna barədə xəbər veriləndir”. Sonra belə dedi: “Bu qaydalara əməl et və artır. Bil ki, şeylər üç qismə bölünür: zahir (aşkar), muzmər (gizli) və nə zahir, nə də muzmər olan. Alimlər nə zahir, nə də muzmər olanı bilməklə biri-birindən üstün olurlar”. Hər şeyi cəm edib ona təqdim etdim. Ona təqdim etdiklərimin içərisində nəsb hərfləri də vardır. Həmin hərflərdən bunları qeyd etmişdim: “innə”, “ənnə”, “ leytə”, “ləllə” və “kənnə”. Amma “lakinnə” ədatını qeyd etməmişdim. Mənə: “Nə üçün onu yazmamısan?” – deyə soruşdu. Mən dedim: “Onu nəsb hərflərindən hesab etmirəm”. (İmam) dedi: “Əksinə o da bu hərflərdəndir. Onu da əlavə et”.[73]

Əbulburkan Ənbari “Nuzhətul-əvliya” kitabında belə yazır: “Əbuləsvəd Duvəli belə nəql edir: “Əmirəlmöminin Əli bin Əbu Talibin yanına gəlmişdim. Əlində dəri parçası vardı. Ondan “Bu nədir, ya Əmirəlmöminin?” - deyə soruşdum. (İmam) dedi: “Ərəb sözlərini araşdırdım gördüm

[73] Seyid Mərəşi Nəcəfi, “Şərhu ihqaqil-həqq”, c. 8, səh. 11.

ki, əcəmlərin dili ilə qarışıb. Elə bir şey etmək istədim ki, ona müraciət və etimad etsinlər". Sonra dərini mənə verdi. Orada belə yazılmışdı: "Söz isim, fel və hərfdir. İsim adlanan şey barədə xəbər verilləndir. Fel adlanan şeyin hərəkəti barədə xəbər verilləndir. Hərf mənanın ifadə olunmasına kömək edir". Sonra mənə dedi: "Bu üslubla davam elə və bildiklərini də əlavə et. Ey Əbuləsvəd, bil ki, isimlər üç qisimdir: zahir, muzmər və nə zahir, nə də muzmər olan isim. Ey Əbuləsvəd, insanlar zahir və ya muzmər isimi – qeyri-müəyyən isimi demək istəyirdi – bilməklə bir-birindən üstün sayılmaz". Sonra mən ətf (bağlayıcı) və nət (təyin) bablarını, həmçinin, təəccüb və istifham (sual sözü və cümləsi) bablarını izah etdim. Sonda "innə və əxəvatuha" babına yetişdim. Amma "lakinnə" ədatını qeyd etmədim. Yazdıqlarımı İmam Əliyə (ə) təqdim edəndə "lakinnə" ədatını da əlavə etməyimi əmr etdi. Hər dəfə nəhv elminin bablarından bir bab yazanda ona təqdim edirdim. Nəhayət yetərli olacaq səviyyəyə çatdım. (İmam) mənə dedi: "Sənin seçdiyin bu nəhv (üslub) necədə gözəldir". Buna görə də bu elm nəhv adlandı.[74]

Əmirəlmöminin İmam Əli bin Əbu Talibin (ə) nəhv elminin əsaslarını yaratmasına dair çoxlu sayda dəlillər vardır. Qeyd etdiklərimiz yetərlidir. Çünki bu məsələ hər iki məzəb tərəfindən təsdiqlənmiş danılmaz həqiqətdir.

---

[74] Seyid Mərəşi Nəcəfi, "Şərhu ihqaqil-həqq", c. 8, səh. 12.

# 17. Kəlam elminin əsasını qoyan ilk şəxs

Kəlam elmi İslam dininin ideoloji prinsiplərinin isbatından bəhs edən elmdir. Kəlam elmi İslam əqidə məsələlərini qəti dəlillərlə sübut edən məsələləri, həmin məsələlərə müxalif olan fikir və rəyləri, onların müzakirəsini və batil olmasının isbatını, həmçinin islam əqidə prinsipləri barədə olan şübhələri ağıl və məntiq əsasında rədd edilməsini ehtiva edir.[75]

Kəlam elminin yaradıcısı, əsaslarını və məzmunun izah edən ilk şəxs İmam Əli (ə) olmuşdur. Onun tohid, nübüvvət, imamət, ədl və məad barədə çoxlu sayda söylədiyi xütbələr Nəhcul-bəlağə və digər hədsi kitablarında qeyd olunmuşdur.

Seyid Murtəza bu məsələyə işarə edərək belə demişdir: “Bil ki, tohidin və ədlin əsasları Əmirəlmöminin Əlinin (ə) sözlərindən və xütbələrindən götürülmüşdür. Onun bu mövzuda olan xütbələri elə məzmunludur ki, nə bir şey artırmağa ehtiyac var, nə də ondan yüksək səviyyədə ifadə edilməsi mümkündür. Onun sozlərini diqqətlə oxuyub düşünən hər kəs anlayar ki, kəlam alimlərinin əsərlərində geniş izah etdikləri mövzular əslində həmin xütbələrin izahı və orada qeyd olunan prinsiplərin şərhidir”.[76]

İbn Əbulhədid belə deyir: “Elmlərin ən şərəflisi ilahi elmdir. Çünki elmin şərəfi orada bəhs olunan mövzunun şərəfinin səviyyəsi ilə ölçülər. Bu elmin mövzusu varlıq-

---

[75] Əbdulhadi Fəzli, “Xulasətu ilmil-kəlam”, səh. 33-34.
[76] Seyid Murtəza, “əl-Əmali”, c. 1, səh. 162-163.

ların ən şərəflisidir. Məhz bu baxımdan ilahi elm ən şərəfli elmdir. Bu elm onun (İmam Əlinin) sözlərindən iqtibas edilib, ondan nəql olunub, ondan başlayıb və ona qayıdır. Tohid, ədl və fikir sahibi olan mötəzilə mənsubları – insanlar bu fənni onlardan öyrəndiyi halda – onun (İmam Əlinin) şagirdi olmuşlar. Çünki mötəzilənin başçısı Vasil bin Əta Əbu Haşim bin Muhəmməd bin Hənəfiyyənin şagirdi olmuşdur. Əbu Haşim atasının şagirdi, atası isə öz atasının (İmam Əlinin) şagirdi olmuşdur. Əşərilərə gəlincə, onlar Əbulhəsənə Əli bin İsmail bin Əbu Bişr Əşəriyə mənsubdurlar. O, Əbu Əli Cubainin şagirdi olmuşdur. Əbu Əli isə mötəzilə şeyxlərindən idi. Deməli, əşərilər mötəzilənin ustadına və müəlliminə, yəni İmam Əli bin Əbu Talibə (ə) qayıdırlar. İmamiyə və Zeydiyyəyə gəlincə, onların (İmam Əliyə) mənsub olmaları aşkardır".[77]

İmam Əlinin (ə) etiqad və kəlam elminin ehtiva etdiyi prinsiplər barədə buyurduğu xütbələri oxuyan hər bir şəxs, həqiqətən də onun kəlam elminin yaradıcısı olduğuna əmin olar. Çünki bu mövzuda heç kim ondan əvvələ keçməmiş və sonra gələn də ona çata bilməmişdir.

[77] İbn Əbulhədid, "Şərhu nəhcil-bəlağə", c. 1, səh. 35-36.

## 18. İslam dövlətinin qanunlarını yaradan ilk şəxs

İmam Əlinin (ə) Misrə vali təyin etdiyi Malik Əştərə yazdığı əhdnamə qanunlar toplusu hesab olunur. İmam bu əhdnamədə rəiyyətə qarşı mərhəmmətli olmaq, ehtiyacı olanlara diqqət etmək, onlara yaxşılıq etmək, onların məişət xərclərinə yardım etmək, vacib hökmləri tətbiq etmək, xüsusi məqamı olanları sui-istifadə etməmələri üçün daima nəzarətdə saxlamaq kimi valinin vacibatlarını qeyd etmişdir. Həmçinin İmam Əli (ə) dövlət işlərində vəzifə tutan şəxslər barədə danışmış, bu vəzifələrə ləyaqət və bacarığı çatanların seçilməsinin, onları nəzarətdə saxlamağın, xəyanət edənlərin isə cazalandırılmasının zəruri olmasını bildirmişdir.

Məhkəmə məsələlərinə gəlincə, İmam Əli (ə) hakimlərin seçilərkən heç kəsə zülm olunmaması üçün ən ləyaqətli və doğru hökm verən şəxsləri seçilməsinin, məhkəmələrin müstəqil olmasının əhəmiyyətini qeyd etmişdir.

Ordu məsələləri barədə isə, ordu başçılarının çox dəqiqliklə seçilməsinin, ən yaxşıların mükafatlandırılması, onlara verilən əhdə vafalı olmaq və onları haqsız yerə qan tökməkdən çəkindirmək kimi məsələlərə toxunmuşdur.

Həmçinin İmam Əli (ə) Malik Əştərə yazdığı əhdnamədə cəmiyyətin müxtəlif təbəqələrini və hər təbəqənin xüsusiyyətlərini tanımağın və hamı ilə xoş davranmağın zəruriliyinə işarə etmişdir. Ümumi mülkiyyətin qorunması, azad ticarət, düzgün rəqabət və möhtəkirliyin qarşısını almaq, fəqirlərin, miskinlarin və ehtiyac sahiblərinin maddi ehti-

yaclarının təmin olunması kimi zəruri məsələlər bu əhadnamədə öz əksini tapmışdır.

Beləcə İmam Əli (ə) İslam dövlətinin konustutsiyasını formalaşdıran ilk şəxs olmuşdur. Məhz bu baxımından onun bu əhdnaməsi tarixçilərin, tədqiqatçıların və yazarların nəzər diqqətində olmuşdur. Hətta bu əhdnamə bir neçə dilə tərcümə edilmişdir. Çünki bu əhdnamə İslam tarixində meydana çıxmış ən dəqiq və yüksək səviyyəli əhdnamədir.

## 19. Bütləri sındıran ilk şəxs

İmam Əli (ə) Kəbənin üstünə qoyulmuş bütləri sındıran ilk şəxsdir. İmam Əli (ə) Rəsulullahın (s) çiyninə çıxaraq bütləri sındırmışdır. İmam Əli (ə) iki fərqli zamanda bütləri sındırmışdır:

Birincisi Peyğəmbərin (s) hicrət etməsindən əvvəl baş vermişdir. Bu barədə Nisai, "əl-Xəsais", Əhməd bin Hənbəl "Musnəd", Hakim Nişapuri "əl-Mustədrək", Təqi Hindi "Kənzul-ummal", Xətib Bağdadi "Tarixu Bəğdad", Əbu Yəla "Musnəd" əsərində və başqaları hədis nəql etmişlər.

Həmin rəvayətlərin məzmununa gəlincə, İbn Abbasdan belə nəql olunur: "Rəsulullah (s) Fəth günü Məkkəyə daxil oldu. Kəbədə üç yüz altmış büt vardı. Ərəblərin hər məhəlləsinə məxsus büt vardı. İblis ayaqlarını möhkəmcəsinə yerə basmışdı. Peyğəmbər (s) əlində əsa gələrək hər bir bütü yerə yıxırdı". Başqa rəvayətdə "üzüstə yerə yıxırdı" və ya "başı üstə yerə yıxırdı" yazılmışdır. Digər bir rəvayətdə isə "hər hansı bütə toxunmada yalnız işarə edirdisə, başı üstə yerə yıxılırdı" deyə qeyd olunmuşdur. Sonra Peyğəmbər (s) belə deyirdi: **"De: "Haqq (islam) gəldi, batil (şirk və küfr) yox oldu. Çünki batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!"**[78] Beləliklə o, bütün bütləri yerə yıxdı.

Başqa rəvayətdə belə nəql olunur: "Peyğəmbər (s) həcərul-əsvədə yaxınlaşıb əllərini ona sürtdü və Kəbəni təvaf etdi. Əlindəki yayın əyri yerindən tutmuşdur. Tavaf əsnasında Kəbənin yanında, yəni qapı tərəfdə qoyulmuş və ibadət edilən və Hobəl adlanan ən böyük bütün yanından keçərkən yay ilə onun gözlərinə vurub belə dedi: **"De: "Haqq (islam) gəldi, batil (şirk və küfr) yox oldu. Çünki**

[78] İsra surəsi, ayə 81.

**batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!”-**[79]Sonra onun sındırılmasını əmr etdi və onu sındırdılar”.

Zubeyr bin Avvam Əbu Süfyana belə demişdir: “Artıq Hobəl sındırıldı. Sən isə Ühüd döyüşündə onun sizə nemət bəxş etməsinin iddia edərək qürurlanırdın”. Əbu Süfyan ona belə dedi: “Ey Avvamın oğlu, boş ver məni danlamağı! Başa düşdüm ki, əgər Muhəmmədin (s) Allahından başqa ilah olsaydı başqa cür olardı”. Peyğəmbər (s) təvafını bitirdikdən sonra həmin vaxt Kəbəyə bitişik olan İbrahim məqamına gəlib çatdı”.

İbn Abbas Əlinin belə dediyini nəql edir: “Rəsulullah (s) gecə vaxtı məni də götürüb Kəbəyə gəldi. Mənə dedi: “Otur”. Mən Kəbənin yanında oturdum. Rəsulullah (s) mənim çiyinlərimə çıxdı. Sonra mənə: “Ayağa qalx!” dedi. Mən da ayağa qalxdım. Lakin mənim zəifliyimi hiss etdikdə belə dedi: “Otur!” Mən də aşağı oturdum. Sonra mənə belə dedi: “Ya Əli, sən mənim çiyinlərimə çıx!” Mən də elə etdim”.

Başqa bir rəvayətdə belə nəql olunur: “Peyğəmbər (s) Əliyə (Allah onun üzünü hörmətli etsin) belə dedi: “Çıx mənim çiyinlərimə və bütləri sındır!”. (Əli) belə dedi: “Ya Rəsulullah (s), sən çıx mənim çiyinlərimə! Mən səndən yuxarı çıxmağı rəva bilmərəm. Sən mənim üçün daha çox hörmətlisən”. (Peyğəmbər) buyurdu: “Sən nübüvvət ağırlığını daşıya bilməzsən. Gəl sən çıx!” Sonra Peyğəmbər (s) oturdu və Əli (Allah onun üzünü hörmətli etsin) onun çiyinlərinə çıxdı. Əli belə deyir: “(Peyğəmbər) məni qaldırdı və mən Kəbənin üstünə çıxdım və Rəsulullah (s) kənara çəkildi. Peyğəmbər məni çiyinlərində qaldıranda mənə elə gəldi ki, əgər istəsəm səmanın yüksəklərinə əl ata bilərəm”.

Digər bir rəvayətdə isə belə nəql olunur: “Əliyə dedilər: “Rəsulullahın (s) çiyinlərinə çıxanda özünü necə hiss edir-

---

[79] İsra surəsi, ayə 81.

din?” O belə cavab verdi: “Elə bir halda idim ki, sanki zöhrə ulduzuna əl atıb tutmaq istəsəm tutardım”.

Əli onun (Peyğəmbərin) çiyinlərinə çıxanda o həzrət belə buyurdu: “Ən böyük bütlərini yerə at!” Həmin büt misdən idi. Deyilənə görə isə şüşədən idi”.

Başqa bir rəvayətdə belə nəql olunur: “Bütün bütləri yerə atdıqdan sonra yalnız Xüzaə qəbiləsinin bütü qaldı. Onu dəmir mıxlarla bərkitmişdilər. Rəsulullah (s) dedi: “Onu aç!” Mən də onu açdım. O isə belə deyirdi: “Bəli “Haqq (islam) gəldi, batil (şirk və küfr) yox oldu. Çünki batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!” Onu açdım və (Kəbənin üstündən) yerə atdım. Yerə düşərək parça-parça oldu”.

Mən deyirəm: “Bu rəvayətə əsasən həmin büt Hobəldən başqası olmuşdur. Hobəl müşriklərin ən böyük bütləri deyildi. Bu büt ondan da böyük olmuşdur. Lakin onun adına rast gəlmədim”.

Sındırılan həmin bütün Hobəl olmasına dəlalət edən dəlillərdən biri də qeyd etdiyimiz kimi Zubeyrin Əbu Süfyana dedikləri sözlərdir. Zübeyr Əbu Süfyana belə demişdi: “Ühüd günü fəxr etdiyin Hobəl artıq sındı”. Əbu Süfyan da ona belə demişdi: “Məni danlamağı burax. Əgər Muhəmmədin Allahından savayı ilah olsaydı belə olmazdı”.

Kəşşaf təfsirində belə deyilir: “Bütün bütləri yerə atdı. Yalnız Xüzaənin Kəbənin üstündə olan bütü qalmışdı. Həmin büt sarı şüşədən idi. Peyğəmbər (s) dedi: “Ey Əli, onu da yerə at!” Rəsulullah (s) onu çiyinlərində qaldırdı. O, (Kəbənin) üstünə çıxıb həmin bütü yerə atdı. Məkkə əhalisi bu işdən təəccüblənərək belə deyirdilər: “Muhəmməddən daha çox sehirli olan birini görmədik”.

Xəsaisul-əşərə” kitabında bu rəvayətin ardı olaraq belə nəql olunur: “Kəbənin üstündən yerə endikdən sonra Rəsulullahla (s) getməyə başladıq. Qüreyşdən kiminsə bizi

görəcəyindən ehtiyat edirdik”. Bu, sözlər dəlalət edir ki, bu hadisə Fəth günü baş verməmişdir.

İkincisi isə Məkkənin fəth olunduğu gün baş vermişdi. Zəməxşəri “əl-Kəşşaf” təfsir kitabında belə yazır: “Kəbənin ətrafında üç yüz altmış büt vardı. Hər bir qövmün özünə məxsus bütü vardı”.

İbn Abbasdan belə nəql olunur: “Ərəb qəbilələrinin bütləri vardı. Həmin bütləri ziyarət edir və onlar üçün qurbanlar kəsirdilər. Kəbə Allaha şikayət edərək belə dedi: “İlahi, nə vaxtadək mənim ətrafımda Sənə deyil, bu bütlərə ibadət olunacaq?” Allah-təala Kəbəyə vəhy edərək belə dedi: “Mən sənin üçün yeni bir şey edəcəm. Sənin ətrafını üzlərini yerə qoyub səcdə edənlərlə dolduracam. Sənin ətrafına qartallar bir şey ətrafına cəm olan kimi cəm olacaqlar. Quş yumurtasına mayil olduğu kimi sənin üçün darıxacaqlar. Onların zikr səsləri sənin ətrafında yüksələcək”.

Rəsulullah (s) Osman bin Əbu Təlhədən Kəbənin açarlarını almaq üçün Bilalı göndərdi. Sonra da Kəbəyə daxil oldu.[80]

Tarixi mənbələrə əsasən Peyğəmbər (s) Fəth günü İmam Əliyə (ə) çox əhəmiyyətli bir iş tapşırmışdır. O, Peyğəmbərin çiyinlərinə çıxaraq Kəbənin üstünə çıxmışdır. O, bütləri yerindən tərpədərək hər birini yerə atmış və onları sındırmışdır.

Əhməd bin Hənbəl, Əbu Yəla Musuli, Əbu Bəkr Xətib Bağdadi, Muhəmməd bin Sabah Zəfərani, Xarəzmi, Əbu Abdullah Nətnəzi İmam Rzanın azad etdiyi nökər Əbulməza Səbihin belə dediyini nəql edirlər: “Onun (İmam Rzanın) ata və babalarından nəql edərək belə dediyini eşitbim: **“Biz onu yüksək bir məqa-**

[80] İbn Hişam, “əs-Siyrətun-nəbəviyyə”, c. 3, səh. 123-124.

**ma qaldırdıq"**[81] ayəsi bütləri sındırmaq üçün Əlinin Peyğəmbərin çiyninə çıxması barədə nazil olmuşdur".[82]

Qətadə İbn Museyyibdən, o da Əbu Hüreyrənin belə dediyini nəql edir: "Cabir bin Abdullah mənə belə dedi: "Peyğəmbərlə birlikdə Məkkəyə daxil olduq. Kəbənin ətrafında üç yüz altmış büt vardı. Allaha deyil onlara ibadət olunurdu. Rəsulullahın (s) əmrindən sonra onların hamısını üzü üstə yerə yıxdılar. Kəbənin üstündə Hobəl adlanan uzun bir büt vardı. Rəsulullah (s) Əmirəlmöminin üzünə baxaraq dedi: "Ey Əli, ya sən mənim çiyinlərimə çıx, ya da mən sənin çiyinlərinə çıxım Hobəli Kəbənin üstündən yerə atım".

Mən (Əli) dedim: "Ya Rəsulullah, sən mənim çiyinlərimə çıx!" O, mənim çiyinlərimə çıxanda peyğəmbərliyin ağırlığından onu daşıya bilmədim və belə dedim: "Ya Rəsulullah, qoy mən çıxım". Güldü. Sonra çiyinlərimdən endi və belini əydi ki, mən onun çiyinlərinə çıxım. Mən onun çiyinlərinə çıxdım. Toxumu yaran və varlığı yaradan Allaha and olsun ki, əlimlə səmaya əl vurmaq istəsəydim, əl vura bilərdim. Hobəli Kəbənin üstündən yerə atdım. Sonra Allah-təala bu ayəni nazil etdi: **"De: "Haqq gəldi..."** yəni La ilahə illəllah və Muhəmmədun rəsulullah, **"...batil yox oldu..."** yəni bütlərə ibadət bitdi. **"...Çünki batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!"** Sonra Peyğəmbər Kəbəyə daxil olub iki rükət namaz qıldı".[83]

Bu iki hadisənin bir-biri ilə qarşıq olmasına baxmayaraq nəticə eynidir. Həmin nəticə bundan ibarətdir ki, Əli (ə) hər iki hadisədə Rəsulullahın (s) çiyinlərinə çıxaraq İslamın doğulmasını, bütpərəstliyin bitməsini elan edərək Kəbənin üstündə olan bütləri yerə atmış və parça-parça etmişdir.

---

[81] Məryəm surəsi, ayə 57.
[82] İbn Şəhru Aşub, "əl-Mənaqib", c. 2, səh. 154.
[83] İbn Şəhru Aşub, "əl-Mənaqib". C. 2, səh. 154-155.

## 20. Məsciddə doğulub məsciddə şəhid olan ilk şəxs

İmam Əli (ə) Kəbədə doğulan və Kufə məscidində şəhid olan ilk şəxs olmuşdur. Onun həyatının əvvəli də məsciddə, sonu da məsciddə olmuşdur.

Həmçinin o, cümə günü Məkkədə Beytulharamda Allaha səcdə edərək dünyaya gəldiyi kimi, cümə günün sübh namazında Kufə məscidində Allaha səcdə etdiyi halda şəhid olmuşdur. Heç kim ondan öncə belə bir fəzilətə sahib olmamışdır.

Tanınmış yazıçı Abbas Mahmud Əqqad bu məsələyə işarə edərək belə deyir: "İmam Əli alnına şəhadət yazılmış halda dünyaya gəlmişdir. Bu dünyadan gedəndə qılınc zərbəsi ilə həmin alına şəhadət gerçəkləşdi.

Kimin aqibəti bu ədalətli şəhidin aqibətinə bənzəyə bilər?! O, bildiyimiz kimi Kəbədə doğulmuş və məscidə də zərbətlənmişdir. Hansı həyatın başlanğıcı və sonu belə başlanğıc və sona bənzər?![84]

İmam Əlinin (ə) bütün həyatı din üçün olmuşdur. Onun bu həyatdakı məramı İslama xidmət, əqidənin müdafiəsi, dinin əsaslarını möhkəmlətmək, Allah-təalanın kəlməsinin uca, kafirlərin kəlməsinin isə alçaq olması üçün hər bir şeyi qurban vermək olmuşdur. Beləcə Rəsulullahın (s) uğrunda etdiyi fədakarlıqlar və cihadı sayəsində o həzrətin ən ixlaslı səhabələrinin önündə məhz Əmirəlmöminin İmam Əli bin Əbu Talib (ə) idi.

---

[84] Abbas Mahmud Əqqad, "Əbqəriyyətul-imam Əli", səh. 155-156.

# Son...

Biz İmam Əlinin (ə) bəzi fəzilətlətlərini və üstünlüklərini qeyd etdik. O həzrət hər bir məsələdə öndə olmuşdur. Öhdəmizdə olan vəzifə onun mübarək həyat tərzinə iqtida etmək, hər bir gözəl əməldə ilk qabaqcıllardan olmaqdır. Tələbə olan şəxs dərslərində, vəzifə daşıyan şəxs işlərini gözəl surətdə yerinə yetirməkdə, tacir cəmiyyətə xeyirli olacaq təsisatlar yaratmaqda, din alimi əxlaq və davranışda, gənc dini dəyərlərə əməl etməkdə hamıdan öndə olmalıdır. Fərdlərin hər bir işdə qabaqcıl olmalarının gərəkdiyi kimi cəmiyyət də gərək hər bir işdə qabaqcıl olsun. Bəzi cəmiyyətlər xeyirli işlərdə, müxtəlif xeyriyyə müəssisələri yaratmaqda qabaqcıl, bəziləri isə belə işlərdə geridə qalmışdır. Biz inkişaf və kamillik yoluna çatmaq üçün cəmiyyətimizi xeyirli işlərdə və xeyriyyə müəssisələri yaratmaqda, elm mərkəzləri təsis etməkdə qabaqcıl etməliyik.

Belə olduğu halda İmam Əliyə (ə) əməli surətdə iqtida etmiş oluruq. İmam Əliyə (ə) olan məhəbbətimiz təkcə qəlbimizdə olmamalıdır. Eyni zamanda onun hidayəti ilə hərəkət etməli, yaşatdığı əxlaqi dəyərləri biz də yaşatmalıyıq. Biz də onun kimi xeyir işlərə tələsməli, saleh əməllər yerinə yetirməli, elmi cəhətdən üstün olmalı, düzgün fikirləşib doğru nəticə çıxartmalı, bir sözlə sözdə və əməldə, qəlbdə və əqldə İmam Əlinin (ə) məhəbbətini yaşatmalıyıq. Məhz belə olduqda biz İmam Əlinin (ə) yolu ilə, yəni haqq, ədalət və düzgünlük yolu ilə hərəkət etmiş olacayıq.

Son duamız budur: Aləmlərin Rəbbi olan Allaha həmd olsun! Həzrət Muhəmməd və onun pak əhli-beytinə salam və salavat olsun!

# İstifadə olunmuş ədəbiyyat


1. Qurani-kərim.

2. Əbu Bəkr Əhməd bin Musa bin Mərdəveyh İsfəhani (vəfat tarixi 410 h), "Mənaqibu Əli bin Əbi Talib". Qum 1429 h.

3. Seyid Muhsin Əmin, "Əyanuş-şiə", Beyrut 1998.

4.İbn Əsir, Əbulhəsən Əli bin Əbulkərəm Muhəmməd bin Muhəmməd bin Əbdulkərim bin Əbdulvahid Şeybani, "əl-Kamil fit-tarix". Beyrut 2003.

5. İbn Əsir, Əbulhəsən Əli bin Əbulkərəm Muhəmməd bin Muhəmməd bin Əbdulkərim bin Əbdulvahid Şeybani, "Usudul-ğabə fi mərifətis-səhabə". Beyrut 1971.

6. İbn Həcər, Əhməd bin Əli bin Həcər Əsqəlani, "Lisanul-mizan". Beyrut 1990.

7. İbn Səd, Əbu Abdullah Muhəmməd bin Səd bin Məni Bəsri, "Təbəqatul-kubra". Beyrut 1990.

8. İbn Seyyidinnas, Muhəmməd bin Muhəmməd bin Əhməd Yəmuri Rəbi, "Uyunul-əsər fi fununil-məğazi vəş-şəmaili vəs-siyər". Beyrut 1986.

9. İbn Şöbə Hərrani, Əbu Muhəmməd Həsən bin Əli bin Hüseyn, "Tuhəful-uqul ən Alir-rəsul". Beyrut 1974.

10. İbn Şəhr Aşub, Əbu Cəfər Muhəmməd bin Əli Sərvi Mazandirani, "Mənaqibu Ali Əbi Talib". Beyrut 1412 h.

11. İbn Əsakir, Əli bin Hüseyn bin Hibətullah Diməşqi, "Tarixu Diməşq". Beyrut 1970.

12. İbn Tavus Əbulqasim Əli bin Musa bin Cəfər bin Muhəmməd Həsəni, "ət-Təhsin". Qum 1413 h.

13. İbn Kəsir, Əbulfida Hafiz bin Kəsir Diməşqi, “əl-Bidayətu vən-nihayə”. Beyrut 2005.

14. İbn Hişam, Əbu Muhəmməd Əbdulməlik bin Hişam Məarifi, “Siyrətu İbn hişam”. Beyrut 2002.

15. Bəhrani, Əbulməkarim Haşim bin Süleyman bin İsmayıl Kətkani Tovbəlani, “Ğayətul-məram və huccətul-xisam fi təyinil-imam min təriqil-xassi vəl-am”.

16. Təmimi Məğribi, Əbu Hənifə Numan bin Muhəmməd bin Mənsur bin Əhməd, “Şərhul-əxbar”.

17. Təmimi Məğribi, Əbu Hənifə Numan bin Muhəmməd bin Mənsur bin Əhməd, “əl-Mənaqib vəl-məsalib”. Beyrtu 2002.

18. Təmimi Məğribi, Əbu Hənifə Numan bin Muhəmməd bin Mənsur bin Əhməd, “Dəaimul-islam”. Beyrut 2005.

19. Hələbi Şafei, “əs-Siyrətul-hələbiyyə”. Beyrut 2008.

20. Xarəzmi, Muvəffəq bin Əhməd bin Muhəmməd Məkki, “əl-Mənaqib”. Qum 1425h.

21. Şərif Rəzi, “Nəhcul-bəlağə”. Beyrut 1989.

22. Salihi Şami, Muhəmməd bin Yusif, “Subulul-huda fi siyrəti xeyril-ibad”. Beyrut 1414 h.

23. Səduq, Əbu Cəfər Muhəmməd bin Əli bin Hüseyn bin Babaveyh Qummi, “ət-Tohid”. Beyrut.

24. Təbəri. Əbu Cəfər Muhəmməd bin Cərir, “Tarixu Təbəri”. Beyrut 2003.

25. Tusi, Əbu Cəfər Muhəmməd bin Həsən bin Əli, “əl-Əmali”. Beyrut 2009.

26. Cəfər Murtəza Amuli, “əs-Səhih min siyrətin-nəbiyyil-əzim”. Beyrut 2007.

27. Abbas Mahmud Əqqad, “Əbqəriyyətul-imam Əli”, Beyrut 1991.

28. Əbdulhadi Fəzli, “Xulasətu ilmil-kəlam”. Beyrut 2007.

29. Hənəfi Gunduzi, Süleyman bin İbrahim Hüseyni Bəlxi, “Yənabiul-məvəddə”. Beyrut 1997.

30. Muhəmməd Yəqub Kuleyni, “Usulul-kafi”. Beyrut 1998.

31. Muhəmməd Baqir bin Muhəmməd Təqi Məclisi, “Biharul-ənvar”.

32. Əli bin Hüseyn Murtəza Musəvi, “Əmali Murtəza; Ğurərul-fəvaid və durərul-qəlaid”. Beyrut 2004.

33. Seyid Şəhəbuddin Mərəşi Nəcəfi, “Şərhu ihqaqil-həqq”. Qum 1415 h.

34. Mufid, Əbu Abdullah Muhəmməd bin Numan Əkbəri Bağdadi, “əl-İrşad”. Beyrut.

35. Nisai, Əbu Əbdürrəhman Əhməd bin Şueyb, “Xəsaisu Əmirəlmuminin Əli bin Əbu Talib”. Beyrut 2003.

36. Hakim Nişapuri, Əbu Abdullah Muhəmməd bin Abdullah, “əl-Mustədrək aləs-səhiheyn”. Beyrut 2002.

37. Muttəqi Hindi, Əlauddin Əli Muttəqi bin Hisamuddin. “Kənzul-ummal”. Beyrut 1989.

# Mündəricat

Müqəddimə ....................................................................3
1. Ən birinci İslamı qəbul edən.........................................6
2. Peyğəmbərlə birlikdə namaz qılan ilk şəxs..................11
3. Peyğəmbərin ilk şagirdi ................................................14
4. Ən birinci vəhy katibi ..................................................16
5. Qurani-kərimi ilk cəm edən .........................................18
6. Peyğəmbərə ilk beyət edən şəxs ...................................23
7. İlk dəfə vəsi adlanan şəxs .............................................25
8. İslamda ilk imam............................................................27
9. Əmirəlmöminin ləqəbini daşıyan ilk şəxs....................28
10. İslamın ilk fədaisi..........................................................30
11. Allah yolunda ilk mücahid ...........................................34
12. İslamda ilk qazı.............................................................36
13. İslamın bayrağını daşıyan ilk şəxs...............................38
14. İlk haşimi xəlifə ...........................................................42
15. İslamda ilk kitab yazan şəxs ........................................43
16. Nəhv elminin əsasını qoyan şəxs .................................44
17. Kəlam elminin əsasını qoyan ilk şəxs...........................49
18. İslam dövlətinin qanunlarını yaradan ilk şəxs ...........51
19. Bütləri sındıran ilk şəxs ...............................................53
20. Məsciddə doğulub məsciddə şəhid olan ilk şəxs .......58
Son... ..............................................................................59
İstifadə olunmuş ədəbiyyat ...............................................60

اليوسف
موقع سماحة الشيخ عبد الله اليوسف
www.alyousif.org

**Doktor Şeyx Abdullah Əhməd əl-Yusifi**

# İmam Əlinin (ə) ən birinci olduğu iyirmi fəzilət

Yığılmağa verilmişdir: 24.08.2017. Çapa imzalanmışdır: 31.08.2017.
Ölçü: 60x90 1/16. Çap vərəqi: 4,0. Sifariş: 168/17. Say: 1000 ədəd.

NURLAR
Nəşriyyat-Poliqrafiya
Mərkəzi

Bakı, Az1122, H.Zərdabi pr. 78
Tel: 4977021 / Faks: 4971295
E-poçtu: office@nurlar.az

9 789952 507492

## İmam Əlinin (ə) ən birinci olduğu iyirmi fəzilət



Bu kitab İmam Əlinin (ə) nə əvvəlkilərin ondan əvvəl sahib olduqları, nə də ki, sonrakıların ondan sonra sahib ola biləcəkləri iyirmi fəzilətindən bəhs edir. Bu fəzilətlər İmam Əlinin (ə) İslamın taleyüklü məsələlərində qabaqcıl olmasını bildirir. Bu kitabın səhifələrində hər iki məzhəbin (şiə və sünni) hədis qaynaqlarından qəbul olunan İmam Əlinin (ə) hamıdan öndə olduğu ən əsas fəzilətlərini qeyd edəcəyik. Bununla da gənc nəsil İmam Əlinin (ə) məqamı və fəzilətlərindən xəbərdar olsun.